Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

14 MAY 2019-cu il

№ 85 (3983)

Qiyməti 40 qəpik

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# İNGİLİS BU YANDAN, ÇÖRƏYİ İNGİLİŞDƏN ÇIXAN AZƏRBAYCANLILAR O YANDAN - ANTİ-AZƏRBAYCAN KAMPANİYASININ NÖVBƏTİ İFLASI...

■ səh. 8 ■



■ səh. 5 ■

## 2012 - «Avroviziya», 2015 - Avropa, 2017 - İslam oyunları, 2019 - final-futbol - Azərbaycan hər sınaqdan çıxır, bədgümanlar hələ öz işlərindədir...



Elkaponenin yaratdığı Rusiya azərbaycanlılarının yeni təşkilatında ittihamlar qızışır - Mirkazım Seyidov Diaspor Komitəsinə qarşı...

■ səh. 7 ■

Bakının «beş addımlığında» unudulmuş yaşayış massivi, su da yoxdur - Atçılıq...

■ səh. 14 ■



Filtr satan şirkətlər bir-iki manat qazanca görə Azərbaycan dövlətinin təmiz su siyasətini vurmaqda davam edir...

■ səh. 12 ■

Ermənistan cəmiyyətində Qarabağ parçalanması - Paşinyan prosesi anbaan müharibə relsinə yönəldir...

■ səh. 9 ■

Britaniya XİN-in Bakıda futbol hay-küyü - ingilis azarkeşlərin özləri nələr törətməyib?!

■ səh. 4 ■

Qondarma "DQR" hakimiyyətinin aldadıcı "videonəzarət taktikası" - qondarma nazir təzə üsul tapdı...

■ səh. 3 ■

Milli Təhlükəsizlik Xidmətinin rəy sorğusu Ermənistanda yeni "məxməri inqilab" söhbətlərini gücləndirdi

■ səh. 10 ■

Hesablama Palatasının alınmış səlahiyyəti - praktikada hansı ziyanlı təsirlər aradan qaldırıldı...

■ səh. 11 ■

Ailələrdə kiçik uşaqların oruca məcbur edildiyi barədə həyəcanlı məlumatlar yayılır

■ səh. 13 ■

İlan və digər heyvanlarla rəqs edən yeni rəqqaslar - peşəkar rəqsə aidiyyəti olmayan elementlər tüğyan edir...

■ səh. 14 ■

■ səh. 3 ■

Obyektiv dünya qüvvələri Azərbaycanda 29 may finalının uğurla keçəcəyini bilir, qərəzliləri və düşmənləri qorxudan nədir...



■ səh. 11 ■

Birinci kvartalda könüllü sığorta 17 faiz azaldı - sığorta bazarımızda nə baş verir...



■ səh. 13 ■

Avtomobillərin şüşələrindəki "satılır" elanında qanunsuzluq?...



■ səh. 12 ■

Türkiyə və Rusiyada işləyən soydaşlarımızın gəlirləri azalıb...



■ səh. 15 ■

Ucqar xəstəxanalarda it, ilan, əqrəb dişləməsi əleyhinə vaksin problemi...



## Kaliforniyanın Örvayn şəhərində 28 may "Azərbaycan Milli Günü" elan edildi

**ABŞ-ın Kaliforniya ştatının Örvayn şəhəri 28 may 2019-cu il tarixini "Azərbaycan Milli Günü" elan edib. Bununla bağlı şəhər meri Kristina Shea (Christina Shea) tərəfindən müvafiq bəyannamə imzalanıb.**


CITY OF IRVINE

Proclamation

AZERBAIJAN NATIONAL DAY
MAY 28, 2019

WHEREAS, the Irvine City Council takes great pride in the City's cultural diversity; and

WHEREAS, Azerbaijani-Americans have made and continue to make immeasurable contributions to the social and economic life of our community; and

WHEREAS, Azerbaijani-Americans have settled and thrived in the United States through their strong family ties, community support, and rich cultural heritage; and

WHEREAS, on May 28th Azerbaijanis around the world celebrate Azerbaijan National Day; and on this occasion, we take the opportunity to recognize the valuable contributions of the greater Azerbaijani-American community.

NOW, THEREFORE, the City Council of the City of Irvine DOES HEREBY PROCLAIM MAY 28, 2019 as AZERBAIJAN NATIONAL DAY in Irvine.

CHRISTINA SHEA
MAYOR OF THE CITY OF IRVINE
MAY 14, 2019

Azərbaycanın Los Ancelesdəki Baş Konsulluğundan baki-xeber.com-a verilən məlumata görə, bəyannamədə azərbaycanlı-amerikalıların şəhərin sosial və iqtisadi həyatına əvəzolunmaz töhfələr verməkdə davam etdiyi bildirilir.

Bəyannamədə azərbaycanlı-amerikalıların güclü ailə bağları, ictimai dəstək və zəngin mədəni irsi vasitəsilə ABŞ-da daha da güclənərək inkişaf etdiyi qeyd olunur.

Sənəddə bütün dünyada yaşayan azərbaycanlıların 28 may tarixini Azərbaycanın Milli Günü kimi bayram etdiyi vurğulanaraq, Şəhər Şurasının Örvaynda yaşayan azərbaycanlı-amerikalı icmasının dəyərli töhfələrini təqdir etdiyi deyilir.

Bəyannamənin sonunda Örvayn Şəhər Şurası tərəfindən 28 may tarixi sözügedən şəhərdə "Azərbaycan Milli Günü" elan edilir.

## Əflatun Amaşov jurnalistika ilə məşğul olan qadınların sayını açıqladı

**Azərbaycanda jurnalistika ilə məşğul olanların 45-55 faizə qədəri qadınlardır.**

"Trend"in məlumatına görə, bunu Avropa Şurasının "Azərbaycanda gender bərabərliyi və media azadlığı" layihəsi çərçivəsində Bakıda keçirilən "Gender bərabərliyi və media" adlı konfransda çıxışı zamanı Mətbuat Şurasının sədri Əflatun Amaşov deyib.

Onun sözlərinə görə, Azərbaycan jurnalistikasının işlək qüvvəsi əsasən qadınlardır: "Təəssüf ki, media rəhbərləri arasında qadınlar azdır.

**Yaxın vaxtlarda bu gün fəaliyyət göstərən qadın jurnalistlər rəhbər olacaq və söz sahibinə çevriləcəklər".**

# Leyla Abdullayeva Mnatsakanyanın saxta demokratiya bəyanatını alt-üst etdi

*"Ermənistanın xarici işlər naziri ölkəsinin təcavüzkar və işğalçı siyasətini "demokratiya" pərdəsi ilə ört-basdır etmək istəyir"*

**Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyan ölkəsinin təcavüzkar və işğalçı siyasətini məhz "demokratiya" pərdəsi ilə ört-basdır etmək istəyir.**

Baki-xeber.com xəbər verir ki, bunu Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Leyla Abdullayeva Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyanın yerli tert.am portalına verdiyi müsahibəni şərh edərkən deyib.



L.Abdullayeva qeyd edib ki, Zöhrab Mnatsakanyanın müsahibəsindən aydın olur ki, onun başlıca hədəfi erməni ictimaiyyətidir: "Müsahibədə uzun-uzadı demokratik tendensiyalardan danışan xarici işlər naziri, görünür ki, Ermənistanın təcavüzkar və işğalçı siyasətini məhz "demokratiya" pərdəsi ilə ört-basdır etmək istəyir. Azərbaycanın ərazilərinin işğal edən, bu ərazilərdə yerli azərbaycanlıların etnik təmizləməsini həyata keçirən, beynəlxalq hüququn norma və prinsiplərini tapdalayaraq, BMT Nizamnaməsini və ATƏT-in Helsinki Yekun Aktını, BMT TŞ-nin qətnamələrini rədd edən Ermənistan rəsmisinin "demokratik sistem və qaydalardan" bəhs etməsi gülünc olduğu qədər saxtadır".

XİN rəsmisi vurğulayıb ki, Z.Mnatsakanyanın münaqişənin həlli ilə bağlı söylədikləri Ermənistanın onilllərdir davam edən təcavüz və işğal siyasətinə son qoymaq, beynəlxalq hüququn prinsiplərinə, ilk növbədə isə dövlətlərin beynəlxalq tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünə hörmət nümayiş etdirərək normal qonşuluq münasibətləri qurmaq niyyətindən uzaq olduğunu göstərir: " Ermənistan xarici işlər naziri həqiqi demokratiya quruculuğu, xalqının rifahı və bölgənin təhlükəsizliyi və tərəqqisində maraqlıdırsa, o zaman Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal çıxarılmalı və bu ərazilərdən didərgin salınmış məcburi köçkünlərin öz evlərinə qayıtmasına əngəl törədilməməlidir. Yalnız bundan sonra ümumbəşəri dəyərlərdən, demokratiyadan və insan həyatına verilən önəmdən danışmaq olar".

DEMOKRATİK, MÜSTƏQİL QƏZET
BAKI XƏBƏR
www.baki-xeber.com
Həftədə 5 dəfə çıxır
Qəzet 2003-cü ildən nəşr olunur

«Bakı-Xəbər» qəzetini hər səhər evinizdə və iş yerinizdə əldə etməyin ən asan yolu -

**Abunə!**

Abunə istəyinizdən asılı olaraq 1-12 aylıq müddətə yazılır.

1 aylıq abunə qiyməti - **8 AZN**
3 aylıq abunə qiyməti - **24 AZN**

**Abunə yazılışı aşağıdakı mətbuat yayım şirkətləri vasitəsilə həyata keçirilir:**

**QAYA - telefonlar:** (012) 564-63-45; 564-48-96
**Azərmətbuatyayım:** (012) 441-19-91; 440-27-85; 440-39-83
**Press İnform:** (012) 498-00-80; (055) 315-60-02

# Türkiyənin Azərbaycandakı səfiri Mətbuat Şurasında oldu...

**Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri cənab Erkan Özoral Azərbaycan Mətbuat Şurasında olub.**

Qonağı salamlayan MŞ sədri, Milli Məclisin deputatı Əflatun Amaşov bildirib ki, Azərbaycan və Türkiyə arasındakı dostluq və qardaşlıq münasibətləri hər iki ölkənin media birliklərinin əlaqələrində də duyulmaqdadır. Bu gün Azərbaycandan Türkiyəyə, Türkiyədən də Azərbaycana çoxsaylı jurnalist səfəri gerçəkləşdirilməkdədir. Azərbaycan jurnalistləri üçün Türkiyənin kütləvi informasiya vasitələri böyük təcrübə mənbəyidir. Türkiyə mediası isə Azərbaycan mediasına ümumən Qafqaz bölgəsi ilə bağlı məlumatların mənbəyi kimi yanaşmaqdadır. Sevindirici haldır ki, kütləvi informasiya vasitələrimiz, eləcə də jurnalist birliklərimiz arasındakı münasibətlər eyni zamanda ölkələrimizlə əlaqədar həqiqətlərin dünya birliyinə çatdırılması sahəsindəki əməkdaşlıq bağına malikdir. Bu, eyni zamanda, etibarlı tərəfdaşlıq deməkdir və onun daha da möhkəmlənməsinə ehtiyac duyulmaqdadır.

Ə.Amaşov, həmçinin bildirib ki, Türkiyə və Azərbaycan mediasının qarşılıqlı işbirliyinin yaradılması və möhkəmlənməsində Türkiyənin Azərbaycandakı Səfirliyinin bir diplomatik missiya kimi hər zaman xidmətləri olub və bu ənənənin davamlılığı məmnunluq yaradır.



Səfir E.Özoral Türkiyə-Azərbaycan media əlaqələrinin daha da intensivləşməsinin siyasi və mənəvi əhəmiyyətindən söz açıb. Bu xüsusda qarşıda duran məsələlər barədə geniş fikir mübadiləsi aparılıb. Bildirilib ki, Türkiyə və Azərbaycan mediası hər iki ölkə ilə bağlı yayılan informasiyalara həssas yanaşmalı, hər hansı spekulyativ məqamların ictimai rəyə təsirini nəzərə alaraq fəaliyyət göstərməlidir. Görüşdə, həmçinin, media sahəsindəki perspektiv əməkdaşlıq məsələlərinə diqqət yetirilib, yeni layihələr ətrafında məsləhətləşmələr aparılıb.

## Hicran Hüseynova hansısa saytlardan niyə narazılıq etdi...

**Qadınların başına gələn hadisələr hansısa saytlarda şou kimi təqdim edilir.**

Buna bir az hörmətlə yanaşılmalıdır. "Trend"in məlumatına görə, bunu Avropa Şurasının "Azərbaycanda gender bərabərliyi və media azadlığı" layihəsi çərçivəsində Bakıda keçirilən "Gender bərabərliyi və media" adlı konfransda çıxışı zamanı Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova deyib. Onun sözlərinə görə, bu kimi məsələlərdə qadınların və uşaqların hüquqları qorunmalıdır: "Bəzən məişət zorakılığına məruz qalan qadın və uşaqlar haqqında yayılan informasiyalar onların gələcək həyatı üçün də müəyyən problemlər yaradır. Nəzərə alınmalıdır ki, onların da yaşamaq hüququ var və bu hüquqa hörmətlə yanaşılmalıdır. Jurnalistlər bu kimi məsələlərə diqqət yetirməlidir".

**Məlum olduğu kimi, mayın 29-da Bakıda UEFA Avropa Liqasının final oyunu keçiriləcək. Bütün dünyanın diqqəti ölkəmizə yönələcək. Ancaq görünən odur ki, Azərbaycanın bu böyük idman yarışına evsahibliyi etməsi, ümumiyyətlə, ölkəmizdə mötəbər beynəlxalq tədbirlərin uğurla keçirilməsi bəzi məkrli qüvvələri ciddi şəkildə narahat edir. Odur ki, onlar ölkəmizə qarşı çirkin kampaniyaya başlayıblar.**

# Obyektiv dünya qüvvələri Azərbaycanda 29 may finalının uğurla keçəcəyini bilir, qərəzliləri və düşmənləri qorxudan nədir...



*"O üzdən, ölkəmizə qarşı qarayaxma kampaniyası aparırlar"*

## *Məhərrəm Zülfüqarlı: "Müəyyən qüvvələr Azərbaycanın idman sahəsində əldə etdiyi uğurları həzm edə bilmirlər"*

Biz bundan əvvəlki illərdə də belə hallarla üzləşmişik. 2015-ci ildə keçirilən Birinci Avropa Oyunları, 2017-cı ildə keçirilən IV İslam Həmrəyliyi Oyunları zamanı Azərbaycana qarşı belə qərəzli kampaniyalar oldu. İstədilər ki, bu tədbirləri gözdən salsınlar. Ancaq Azərbaycan həmin tədbirlərə, o cümlədən, "Formula-1" yarışlarına çox uğurla evsahibliyi etdi. Lakin Böyük Britaniyanın Xarici İşlər Nazirliyi də daxil olmaqla, bir sıra instansiyalar idmana heç bir aidiyyəti olmayan, qərəzli və reallıqdan uzaq subyektiv mülahizələr irəli sürürlər. Beynəlxalq ictimaiyyətdə bu mühüm idman tədbirinin Azərbaycanda keçirilməsinin məqsədəuyğun olmadığı barədə rəy formalaşdırmağa çalışırlar. Halbuki, bu yöndə deyilənlərin heç bir əsası yoxdur. Azərbaycan kifayət qədər beynəlxalq tədbirin, xüsusilə də idman yarışlarının keçirildiyi bir ölkədir. İndiyədək keçirilən beynəlxalq idman tədbirlərinin uğurlu alınması faktdır. Belə olan halda, müəyyən qüvvələr növbəti idman tədbirinə Azərbaycanın evsahibliyi etməsindən niyə narahatdırlar?

**Məsələyə münasibət bildirən İctimai Problemlərin Tədqiqi Assosiasiyasının rəhbəri Məhərrəm Zülfüqarlının sözlərinə görə, müəyyən qüvvələr Azərbaycanın idman sahəsində əldə etdiyi uğurları həzm edə bilmirlər**: "O üzdən, ölkəmizə qarşı qarayaxma kampaniyası aparırlar. Bu qüvvələr sifarişlə işləyirlər. Azərbaycan bundan əvvəlki beynəlxalq idman oyunlarına çox uğurla evsahibliyi edib. Bunu onlar da yaxşı bilirlər. Biz artıq bu cür hallara öyrəşmişik. Ölkəmizin güclənən mövqeyi, uğurları dostlarımızı sevindirir, düşmənlərimizi isə xar edir. Düşmənlərimiz Azərbaycanın uğurlarından narahatdırlar. Gözügötürməyən qüvvələr ölkəmizdə beynəlxalq tədbirlər keçirilən zaman öz şəbəkələrini işə salaraq qərəzli kampaniya aparırlar.

Ancaq əminəm ki, Azərbaycan bu dəfə də uğurla sözügedən finala evsahibliyi edəcək. Necə ki, bundan əvvəlki idman tədbirlərinə evsahibliyi edib.

**Əminəm ki, bizim aidiyyəti qurumlarımız, həmişə olduğu kimi, bu dəfə də öz vəzifələrinin öhdəsindən yüksək səviyyədə gələcəklər. Bu yarış da yüksək səviyyədə keçiriləcək. Azərbaycan idman ölkəsidir. UEFA Avropa Liqasının final oyunu da ən yüksək səviyyədə keçiriləcək".**

***Vidadi ORDAHALLI***

---

**Ermənistan KİV-inin verdiyi məlumata görə, Xankəndidə atəşkəsin əldə olunmasının 25 illiyinə həsr edilmiş mətbuat konfransında qondarma qurumun "xarici işlər naziri" Masis Mailyan özlərini təmizə çıxarmağın yeni yolunu tapmış kimi danışıb.**

# Qondarma "DQR" hakimiyyətinin aldadıcı "videonəzarət taktikası" - qondarma nazir təzə üsul tapdı...




*"Onlar bu cür videonəzarət oyununu ortaya atmaqla prosesi bir az da uzatmağa çalışırlar"*

## *Daşdəmir Əliyev: "Bizim nəinki təmas xəttinə, eləcə də Ermənistanın özünə nəzarət etmək imkanlarımız yüksəkdir"*

O qeyd edib ki, bütün beynəlxalq qurumlara və həmsədrlərə atəşkəs dövründə olan videonəzarət sistemlərindəki məlumatları təqdim etməyə hazırdırlar.

"Nazir" qeyd edib ki, xüsusilə də aprel döyüşlərindən sonra onlar belə nəzarət mexanizmlərini təmas xətti boyunca çox yerləşdiriblər. Aydındır ki, bununla qondarma qurum "rəsmisi" özlərini sülhə sadiq tərəf kimi göstərməyə can atır və bildirmək istəyir ki, atəşkəsin mütəmadi pozulmasında yeganə günahkar Azərbaycandır. Əlbəttə, bu inandırıcı deyil, çünki Azərbaycan hələ ki, işğal altında olan torpaqları sülh yolu ilə azad etməyə çalışır. Bu mümkün olmadığı təqdirdə, atəşkəsi pozmaqla deyil, müharibə yolu ilə torpaqları işğaldan azad etmək yolunu tutacaq. Ara-sıra atəşkəsi pozmaq isə yalnız işğalçılara sərf edə bilər. Qondarma qurum rəsmilərinin "videonəzarət qeydlərindən istifadə" təklifinin arxasında daha hansı məqsədlər dayana bilər?

**Hərbi ekspert Daşdəmir Əliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ermənilərin yeni təxribatı səmərə verə bilməz: "Onlar gözəl bilməlidirlər ki, Azərbaycan kosmik dövlətdir.** Bizim nəinki təmas xəttinə, eləcə də Ermənistanın özünə nəzarət etmək imkanlarımız yüksəkdir. Bizim hazırda fəzada 3 kosmik peykimiz var. Həmin peyklərdən alınan görüntülərlə biz Ermənistana və istənilən vasitələrə faktları təqdim edə bilərik. Hətta erməni əsgərlərinin sinəsində yazılan yazılar və kimin neçə ulduzunun olmasına qədər. Bizim elə geniş imkanlarımız olduğu halda, Ermənistan guya təmas xəttinə quraşdırdığı bir-iki videoqeydiyyat aparan qurğu ilə fəxr edir. Onlar utanmadan atəşkəsin 25 illiyindən fəxrlə danışırlar. Qonşu dövlətin torpaqlarını zəbt edib oturduları üçün, atəşkəs onlara göydəndüşmə bir vasitədir. Ona görə bu barədə pafosla danışırlar. Ancaq unutmasınlar ki, artıq həmin sevincin onlara qara gətirməsinin zamanı tam yetişib. Onlar bu cür videonəzarət oyununu ortaya atmaqla prosesi bir az da uzatmağa çalışırlar. Lazım gələndə onlar atəşkəsi uzaq məsafədən vuran silahlar və "dronlar" vasitəsilə də poza bilirlər. Bununla kimi aldatmaq istəyirlər? Atəşkəsi hər dəfə onlar pozub, biz cavab atəşilə onları susdurmuşuq. Bu gün Azərbaycan onların hər bir hərəkətinə nəzarət etmək iqtidarındadır. Biz hətta Ermənistandan Dağlıq Qarabağa gedən dəhlizi də müşahidə altında saxlayırıq. Qoy videonəzarətlə öyünənlər bilsinlər ki, biz hətta Ermənistanın hava məkanını belə nəzarətdə saxlayırıq. Bu cür texniki imkana malik olan bir ölkənin qabağına hansısa videokamera ilə çıxmaq çox gülüncdür.

**Bizim Prezident dəfələrlə mövqeyini bildirib. Biz ərazi bütövlüyümüzdən zərrə qədər də olsun güzəştə gedən deyilik. Müxtəlif bəhanələrlə bizim başımızı aldatmasınlar. Bizim atəşkəsi pozmağa deyil, müharibə ilə torpaqlarımızı azad etməyə haqqımız var. Artıq beynəlxalq səviyyədə də ermənilərin kim olduqları bilinir. Bütün beynəlxalq dairələr bizim haqq səsimizi dəstəkləyirlər.**

Mən inanıram ki, yaxın zamanlarda biz ermənilərin layiqli cavabını verəcəyik. Çünki onlar sülh danışıqlarına məhəl qoymurlar. Mövsüm də tam uyğun gəlir. Onlar hər zaman burunları qaşınanda belə edirlər. Paylarını aldıqdan sonra sakitləşəcəklər".

***Məhəmmədəli QƏRİBLİ***

# Britaniya XİN-in Bakıda futbol hay-küyü - ingilis azarkeşlərin özləri nələr törətməyib?!

**Məlumdur ki, dünyada öz aqressivlikləri və davadalaşları ilə ad çıxaran futbol fanatları sırasında ingilislər öndə gedir. Buna dünyada kimsə şübhə etmir. Hətta ingilislərin özləri bəzən bu "göstərici" ilə fəxr də edirlər. Maraqlıdır ki, mayın 29-da Bakıdakı Olimpiya Stadionunda keçiriləcək oyunla bağlı elə ən böyük səs-küyü də onların özləri qaldırıb.**

Həmin tarixdə Bakıda UEFA Avropa Liqasının finalı keçiriləcək. Özü də iki ingilis komandası -"Arsenal" və "Çelsi" arasında. Finalda yarışanların hər ikisinin ingilis klubları olması intriqaları daha da artırır. Nəticədə Bakıda keçiriləcək finala maraq olduqca böyükdür və gözlənir ki, minlərlə ingilis futbol fanatı da daxil olmaqla Avropadan çoxsaylı azarkeş bu futbol bayramını izləmək üçün Bakıya axışacaq. Ancaq təəssüflər olsun ki, elə məhz Böyük Britaniyanın rəsmi dairələri keçiriləcək bu idman tədbiri ilə bağlı Azərbaycanı ilk hədəfə alanlardan oldular. Onlar öz çılğın azarkeşlərini asayişi pozmamağa çağırmaq əvəzinə, Azərbaycanı qaralamaqla məşğul oldular.

Britaniyalıların özləri də yaxşı bilirlər ki, kifayət qədər sərt xarakteri, iğtişaşlar törətmək təcrübəsi olan ingilis fanatlar başqa ölkələrdə bir o qədər də arzuolunan qonaq deyillər. Buna baxmayaraq, Azərbaycan mayın 29-da asayişi, qonaqların və idmançıların təhlükəsizliyini ən yüksək səviyyədə təşkil etməyə hazırdır.

Bir az əvvəl qeyd etdik ki, ingilis futbol fanatları dünyanın ən çılğın azarkeşləri kimi tanınırlar. Bu onların getdikləri yerdən və ölkədən asılı olmayaraq belədir. Üstəlik, əgər komandaları qalib gəlibsə, artıq həmin gecə səhərə qədər asayiş keşikçilərinə yatmaq haramdır. Əyləncənin, içkinin dozasını o qədər qaçırırlar ki, rəqib komanda fanatlarına söz atmasalar, dava salmasalar, olmur sanki. Ancaq onlar Bakı təcrübəsini bir dəfə keçiblər və görüblər ki, bizim paytaxt xuliqanlıq üçün meydan sayıla bilməz. Hətta burada qalib gəldikləri matçda belə, ingilis fanatlar alkoqolu dava salmaq üçün yox, soyuq havadan qızışmaq üçün qəbul etmiş oldular. Söhbət "Çelsi"nin "Qarabağ"a qalib gəldiyi 4-0 hesabı ilə bitən oyundan gedir. Bəlkə də həmin azarkeşlər Londondan təyyarəyə minib Bakıya dava-dalaş salmaq, çılğınlıq etmək həvəsi ilə gəlmişdilər, ancaq, necə deyərlər, istəkləri ürəklərində qaldı.

Xırda bir araşdırma apardıqda məlum oldu ki, son illər ərzində ingilis futbol fanatları dünyanın müxtəlif ölkələrində misli görünməyən xuliqanlıq hərəkətləri edib, iğtişaşlar törədiblər. Çox yaxşı olardı ki, Britaniya XİN-i bizim kimi ev sahibi olan ölkəni qaralamaq əvəzinə, bir az da öz vətəndaşlarının "qəhrəmanlığı"ndan bəhs edərdi.

2006-cı ildə Dortmundda yerli "Borussiya" komandası ilə İngiltərənin "Tottenhem" klubu arasında keçirilən mövsümqabağı görüşdən sonra müxtəlif ölkələrdən olan 10 futbol azarkeşi saxlanıb. Alman və ingilis azarkeşləri şəhər barlarından birində qovğa salmış, nəticədə başından zədə alan ingilislərdən biri xəstəxanaya çatdırılıb. Dalaşmada təxminən 80 adam iştirak edib. Onlar toqquşma zamanı butulka, stul və skamyalardan istifadə ediblər. Xəstəxanaya düşən azarkeşdən savayı, qovğanın daha üç iştirakçısı zərər çəkib. Saxlanan 10 nəfərdən 7-si ingilis, 2-si alman, 1-i isə holland olub.

2016-cı ildə Fransada keçirilən Avropa çempionatına rus azarkeşlər ingilis azarkeşlərlə dalaşıblar. Toqquşmanın videosundan görünür ki, rusları dava salmağa ingilis fanatlar məcbur ediblər. Hər iki komandanın azarkeşləri Avropa çempionatının birinci turunda matçdan əvvəl Marseldə rastlaşıblar. İki ölkə azarkeşləri arasında baş verən toqquşmalarda bir ingilis öldürülüb.



Qeyd edək ki, İngiltərə-Rusiya arasında baş tutan matç 1:1 hesabı ilə yekunlaşıb.

Elə həmin il İngiltərə Liqa Kubokunda "Mançester Yunayted"in əzəli rəqibi "Mançester Siti"ni məğlub etməsi Siti azarkeşlərini əsəbləşdirib. Onlar oturacaqları sökərək Yunayted tərəfə atıblar.

Son 6 oyunda uğursuz çıxış edən Qvardiolanın komandasına üsyan edən azarkeşlər "Old Trafford"un ayaqyolunu darmadağın ediblər.

Başqa bir fakt. AVRO-2016-ya evsahibliyi edən Fransada millilərinə dəstək verən ingilis və fransız azarkeşlər iğtişaşlar törədiblər. İngilis azarkeşlər Albaniya ilə matçdan qalib ayrılan fransız fanatlara qoşularaq qələbəni qeyd ediblər. Slovakiyanın Rusiyanı məğlub etdiyi matçın ardından küçələr savaş meydanına çevrilib. Polis fanat tərəfdarları dağıtmaqda çətinlik çəkib. 16 nəfərin yaralandığı, 36 fanatın saxlandığı iğtişaşın tödədicisi kimi ingilislər qeyd edilib.

2017-ci ildə Marsel polisi yerli sakinlərlə Britaniya futbol azarkeşləri arasında toqquşmanı dayandırmaq üçün gözyaşardıcı qazdan istifadə edib.

Yerli KİV-in məlumatına əsasən, hadisə yerli vaxtla (Bakı vaxtilə saat 2.00) gecə yarısı baş verib. Davada iki yüzə yaxın azarkeş iştirak edib. Sonradan isə polislərin iki ingilisi həbs etdiyi məlum olub. Onlardan biri restoranlardan birinin işçisinə hücum edib, digəri isə "zor tətbiq etməklə iğtişaşlarda iştirakda" şübhəli bilinib. Dava nəticəsində iki britaniyalı fanat yaralar, dörd polis də xəsarət alıb.

2017-ci ildə isə ingilis fanatları rus jurnalist xanıma hücüm edib, ona xəsarət yetiriblər.

2018-ci ildə London "Arsenal"ının baş məşqçisi Unay Emeri futbol üzrə İngiltərə Premyer Liqasının XIX turunda "Brayton" komandası ilə oyun zamanı əsəblərini cilovlaya bilməyib.

Görüşün axırlarında ispaniyalı mütəxəssisin acığından zərbə endirdiyi su qabı tribunadakı azarkeşlərdən birinə dəyib. Bundan dərhal sonra 47 yaşlı mütəxəssis həmin fanata əl uzadaraq ondan üzr istəyib. Buna baxmayaraq, ingilis fanatlar iğtişaş törətməyə cəhd ediblər.

Bu hələ bizim ingilis fanatları ilə bağlı təqdim etdiyimiz qısa məlumatdır. Tarixin dərinliklərinə ekskurs etsək, daha biabırçı mənzərənin şahidi olarıq. Hətta ingilis klublarının azarkeşlərinə qırmızı vərəqənin göstərildiyinə kimi. Belə hallar da olub ki, ingilis fanatlarının xuliqanlığına görə onların klubları tam azarkeş dəstəyindən məhrum olunub, nəticədə baş stadionda oynamağa məcbur olublar. Hər halda, Britaniyanın rəsmi dairələri az da olsa bundan utanıb, Azərbaycan kimi stabil ölkəyə şər atmaqdan boyun qaçırmalıdırlar.

*Məhəmmədəli QƏRİBLİ*

# ABŞ-ın onlarla qırıcı və 6 min əsgər daşıyan nəhəng təyyarə gəmisi İran raketlərinin hədəfində - "Hərəkət etsə vuracağıq"...

## *ABŞ-ın nüvə təyyarələri də bölgəyə gətirildi*




**ABŞ-ın İran təhdidinə qarşı bölgəyə hərbi qüvvə toplaması və təyyarə gəmisi göndərməsinə sərt reaksiya verən İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) hava qüvvələri komandiri Əmir Əli Hacızadə ABŞ gəmisini vurmaqla təhdid edib.**

Baki-xeber.com xəbər verir ki, ABŞ-ın bölgədəki bazaları və İranın raket sisteminə toxunan Hacızadə ABŞ-ı hədələyib.

"ABŞ bölgədə elə bir mövqedədir ki, hərəkət etsə vuracağıq. ABŞ-ın, üzərində 40-50 təyyarə və 6 min əsgər daşıyan təyyarə gəmisi əvvəllər bizim üçün təhdid sayılırdı, ancaq indi hədəfdən başqa bir şey deyil" - SEPAH komandiri deyib. General ABŞ gəmilərinin Fars körfəzində, İran torpaqlarına yaxın məsafədə hərəkət etdiyini deyib: "Əlimizdəki raketlərlə 300 km uzaqdakı hədəfi vura bilirik. Artıq bu məsafəni 700 km qədər yüksəldə bilmişik".

Qeyd edək ki, ABŞ, İranla gərginliyi əsas gətirərək, "USS Abraham Lincoln" təyyarə gəmisini, "USS Arlington" amfibiya döyüş gəmisini və Patriot havadan müdafiə sistemini Orta Şərqə göndərib.

Bundan başqa, ABŞ bölgəyə nüvə başlığı daşıya bilən B-52 strateji bombardmançılar da göndərib. Dörd nüvə təyyarəsi Qətərdə yerləşdirilib.

# 2012 - "Avroviziya", 2015 - Avropa, 2017 - İslam oyunları, 2019 - final-futbol - Azərbaycan hər sınaqdan çıxır, bədgümanlar hələ öz işlərindədir...

**Son illər Azərbaycan mötəbər beynəlxalq tədbirlərə, o cümlədən nüfuzlu idman yarışlarına, festivallara, qlobal forumlara, konfranslara yüksək səviyyədə evsahibliyi edir. Belə mühüm tədbirlərə evsahibliyi etmək üçün Azərbaycana etimad göstərilməsi təsadüfi deyil. Əlbəttə, bu, Azərbaycanın qazandığı mövqeyin, ölkəmizin dünyadakı çəkisinin, beynəlxalq ictimaiyyət və təşkilatlar qarşısında nüfuzunun ifadəsidir.**

Eyni zamanda, belə tədbirlər Azərbaycan dövləti və xalqı üçün də mühüm dividendlər gətirir.

Azərbaycanın evsahibliyi etməyə hazırlaşdığı növbəti mötəbər tədbir mayın 29-da Bakı Olimpiya Stadionunda keçiriləcək UEFA Avropa Liqasının final matçıdır. Təəssüf ki, Avropadakı anti-Azərbaycan qüvvələr ölkəmizdə keçirilən hər belə mötəbər tədbir ərəfəsində olduğu kimi, bu dəfə də qarayaxma kampaniyasına başlayıblar.

Azərbaycanın təşkilatçılıq qabiliyyətinə gəldikdə isə bunu demək kifayətdir ki, ölkəmiz bu sahədə peşəkarlığını dəfələrlə sübut edib. Xüsusilə tarixdə ilk dəfə keçirilən və Avropanın 50 ölkəsindən 6 mindən çox atletin mübarizə apardığı Birinci Avropa Oyunlarına cəmi 30 ay müddətində sürətlə hazırlaşaraq bu mötəbər idman yarışını ən yüksək səviyyədə təşkil edən Azərbaycanın bu sahədəki uğurları nəinki Beynəlxalq və Avropa Olimpiya komitələri, digər mötəbər qurumlar tərəfindən də yüksək qiymətləndirildi. Azərbaycanın son illərdə evsahibliyi etdiyi digər mötəbər idman yarışları - 1600 şahmatçının iştirak etdiyi 42-ci Ümumdünya Şahmat Olimpiadası, qadınlar arasında voleybol üzrə Avropa çempionatı, 800-dək idmançının qatıldığı cüdo, 1500 nəfərin mübarizə apardığı BMX velosipedi üzrə Dünya çempionatlarının, 4 minə yaxın atletin iştirak etdiyi IV İslam Həmrəyliyi Oyunlarının, gimnastikanın müxtəlif növləri üzrə ən mötəbər beynəlxalq turnirlərin iştirakçıları ölkəmizdə idmançılar və komandaların üzvləri üçün ideal şəraitin yaradıldığını bildiriblər. Bütün bunlar Azərbaycan əleyhinə səsləndirilən ittihamların əsassız olduğunu ifadə edən faktlardır.

Azərbaycanda təhlükəsizliyin və sabitliyin tam şəkildə təmin olunduğu Xarici İşlər Nazirliyinin məsələyə münasibətində də qəti şəkildə ifadə edilib: "Azərbaycan çoxsaylı mötəbər beynəlxalq tədbirə, o cümlədən, beynəlxalq miqyaslı idman yarışlarına evsahibliyi edir. Bu sırada Birinci Avropa Oyunlarını, IV İslam Həmrəyliyi Oyunlarını, "Formula-1" üzrə Azərbaycan Qran-Prisini və UEFA Çempionlar Liqası çərçivəsində 2017-ci ildə keçirilmiş "Qarabağ" - "Çelsi" oyununu qeyd etmək olar. Bu idman yarışlarını izləmək məqsədilə respublikamıza gələn çoxsaylı əcnəbi ölkə vətəndaşı Azərbaycanda ictimai asayişin təmin olunmasından, mövcud sabitlik və təhlükəsizlik mühitindən və bu kimi irimiqyaslı idman tədbirlərinin təşkilatçılığından məmnun qalıblar. Azərbaycan, həmçinin, turizm ölkəsidir və hər il ölkəmizə çoxsaylı əcnəbi turist səfər edir. Ölkəmizin malik olduğu digər müsbət xüsusiyyətlərlə bərabər, Azərbaycanda hökm sürən əminamanlıq, sabitlik və təhlükəsizlik əcnəbi turistləri cəlb edən vacib amillər sırasındadır".

Son 7 il ərzində keçirilən böyük mötəbər yarışların xronikasına nəzər saldıqda biz aydın şəkildə görürük ki, ssenari eyni üsulla davam etdirilir.

"Arsenal"ın erməni əsilli futbolçusunun təhlükəsizliyi ilə bağlı yaratdığı əsassız hay-küyə dərindən fikir verdikdə məlum olur ki, bu cür qarapiarlar eyni mərkəzlər tərəfindən hazırlanır. 2012-ci ildə Bakıda keçirilən "Avroviziya" beynəlxalq mahnı müsabiqəsində də Ermənistan təmsilçisi iştirakdan imtina etmək qərarına gəldi.

Avropa Yayım İttifaqının səylərinə və müsabiqəni təşkil edən ölkənin təhlükəsizliyə zəmanət verməsinə baxmayaraq, "Ermənistan bizim nəzarətimizdən kənar olan bir qərar qəbul edib", - deyə "Avroviziya" müsabiqəsinin icraçı direktoru Yan Ola Sand "Eurovision.tv"yə müsahibəsində bildirdi. Beləliklə, daha öncə ərizə vermiş 43 ölkədən yalnız 42-si müsabiqəyə qatıldı.

Yeni ermənilər bir qədər düşünərək onlara xas olan ssenari ilə hərəkət etməyə, yeni bütün dünyaya səs-küy salmağa və növbəti dəfə özlərini "əzabkeş" millət kimi təqdim etməyə qərar verdilər.




Analoji halla biz 2015-ci ildə ölkəmizin evsahibliyi etdiyi İlk Avropa Oyunları zamanı da qarşılaşdıq. Onda da idman yarışını siyasətə qatan bəzi dairələr, nəyin bahasına olursa-olsun, bizə qara yaxmağa çalışırdılar. Hətta bəzi ölkələrin nüfuzlu idman qurumlarının rəhbərləri belə həmin prosesdə yer aldılar. İsveç Olimpiya Komitəsinin prezidenti Stefan Lindeberq Azərbaycanla bağlı Avropa Olimpiya Komitəsinə şikayət etmişdi. S.Lindeberq Bakıda keçiriləcək Birinci Avropa Oyunlarının başlanmasına 100 gün qalmış "Amnesty İnternational"ın yaydığı hesabata istinad edərək bildirib ki, guya turnirə evsahibliyi edən Azərbaycanda insan hüquqları və demokratiya ilə bağlı standartlara əməl olunmur. Lakin Bakıya dəfələrlə səfər edən və ölkəmizin inkişafını, əldə etdiyi tərəqqini öz gözləri ilə görən Patrik Hikkinin rəhbərlik etdiyi Avropa Olimpiya Komitəsindən Lindeberqin müraciətinin əsassız olduğu, reallığı əks etdirmədiyi bildirilib.

Sual yaranır ki, niyə hər dəfə hansısa ölkədə mötəbər tədbir, xüsusilə beynəlxalq idman yarışları təşkil olunanda bəzi xarici dairələr tərəfindən standart fikirlər irəli sürülür? İdmanı siyasi alətə çevirmək istəyənlər hər dəfə Dünya çempionatları, Olimpiya oyunları və digər beynəlxalq səviyyəli yarışlar ərəfəsində təşkilatçı ölkələrdə guya insan hüquqlarının pozulduğundan narahat olurlar. Ancaq onların heç birinin istəkləri həyata keçmir. Ölkəmiz çox yüksək ustalıqla, peşəkarlıqla həmin oyunları keçirmiş olur. Bəllidir ki, bu cür əhəmiyyətli hadisələrin öhdəsindən yalnız Azərbaycan kimi siyasi-iqtisadi sabitlik dövrü yaşayan dövlət gələ bilərdi. Hərçənd, ölkəmizin beynəlxalq aləmdə artan nüfuzu, iqtisadi-siyasi qüdrəti bəzi dövlətlərdə qısqanclıqla qarşılanmağa başlayıb.

Ölkəmizin evsahibliyi etdiyi İslam Həmrəyliyi Oyunları zamanı da biz analoji təxribatlarla üzüzə qaldıq. Onda da guya ölkəmizdə insan haqlarının pozulduğunu iddia edən bəzi yerli və beynəlxalq dairələr xarici ölkələrdəki səfirliklərimiz önündə aksiyalar keçirdilər. Xüsusilə də mühacirlərdən ibarət söyüşcül dəstənin fəallaşması nəzərə çarpdı.

Azərbaycan Güləş Federasiyasının vitse-prezidenti, tanınmış idman ustası Firdovsi Umudov hesab edir ki, Azərbaycanda beynəlxalq yarış və tədbirlərin yüksək səviyyədə keçirilməsi, həmin tədbirlərin bütün dünyada müsbət əks-səda verməsi bəzi xarici qüvvələri narahat edir.

Onun sözlərinə görə, həmin qüvvələr Azərbaycanda bu cür tədbirlərin yüksək səviyyədə keçirilməsindən, ölkənin sürətlə inkişafından narahat olduğundan, belə üsullara əl atmaqla ölkəmizə qarşı qarayaxma kampaniyası aparırlar: "Mən həmin insanları xəstə adlandırıram. Çünki onlar həqiqətən Azərbaycanı istəmirlər. Bəzi "sapı özümüzdən olan baltalar" da həmin qüvvələrə qoşulmaqla Azərbaycanın imicinə zərbə vurmağa cəhd edirlər. Bu, birinci dəfə deyil. Bu cür hallar 2012-ci ildə "Eurovision" müsabiqəsi, 2015-ci ildə Avropa Oyunları, 2017-ci ildə İslam Həmrəyliyi Oyunları, bundan sonra keçirilən "Formula-1" Azərbaycan Qran-Pri yarışı zamanı da olub.

İndi də Böyük Britaniyanın Xarici İşlər Nazirliyi də daxil olmaqla, bir sıra instansiyalar idmana heç bir aidiyyəti olmayan, qərəzli və reallıqdan uzaq subyektiv mülahizələr irəli sürür və beynəlxalq ictimaiyyətdə bu mühüm idman tədbirinin Azərbaycanda keçirilməsinin məqsədəuyğun olmadığı barədə rəy formalaşdırmağa çalışırlar. Çünki həmin qurumların Azərbaycanı gözü götürmür".

Millət vəkili Azər Badamov da hesab edir ki, Azərbaycan inkişaf edən ölkədir və bir çox uğura imza atıb: "Azərbaycan bir çox beynəlxalq idman yarışına evsahibliyi edib. Bildiyiniz kimi, Birinci Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, "Formula-1" və s. ayrı-ayrı idman növləri üzrə beynəlxalq yarışmalar Azərbaycanda keçirilib. Hər bir böyük beynəlxalq yarışma ərəfəsində Azərbaycanı ləkələmək, ölkəmizdə təhlükələrin mövcud olması barədə müəyyən təbliğat kampaniyası işləyir. Bu təbliğat kampaniyası ölkəmizə qarşı olan qarayaxma kampaniyasının tərkib hissəsidir və müəyyən sifarişlərin icrasıdır. Yəni ölkəmizə qarşı çevrilmiş antimilli ünsürlərin məqsədi Azərbaycanı beynəlxalq miqyasda nüfuzdan salmaq, Azərbaycanı təhlükəli bir məkan kimi təqdim etməkdir və Bakıda keçiriləcək UEFA finalının baş tutmaması istiqamətində müəyyən işlər görməkdir. Düşünürəm ki, onların apardığı bir qarayaxma kampaniyası, antimilli siyasət ancaq özlərinin boş-boş danışmaları ilə yadda qalacaq. Çünki Azərbaycanda beynəlxalq yarışların keçirilməsi üçün kifayət qədər təcrübə formalaşıb. Azərbaycan ictimaiyyəti müəyyən xarici anti-Azərbaycan dairələrin mühüm tədbirlər ərəfəsində ölkəmizə qarşı belə qərəzli kampaniyalar təşkil etməsinin dəfələrlə şahidi olub".

***Məhəmmədəli QƏRİBLİ***

**İngiltərə futbolun vətəni hesab olunsa da, bu vaxta qədər yalnız bir dəfə dünya çempionu olmağı bacarıblar. O da məhz azərbaycanlı kişinin sayəsində!**



# Tofiqin vətəni, ingilisin "tövsiyəsi" və göz çıxaran Bakı...

**Nicat DAĞLAR**

1966-cı ildə keçirilmiş dünya çempionatının final qarşılaşmasında yan xətt hakimi Tofiq Bəhramovun dəqiqliyi və prinsipiallığı sayəsində ingilislərin mübahisəli topu qol kimi qeydə alındı. O vaxtdan 53 il keçib və bu illər ərzində ingilislər dünya kubokunu ikinci dəfə başları üzərinə qaldırmağa müvəffəq ola bilməyiblər…

2006-cı ildə ingilislər Bakıya gəlmişdi. Dünya Kubokunun seçmə mərhələsi çərçivəsində Azərbaycanla İngiltərə millıləri qarşılaşacaqdı. Oyundan əvvəl Tofiq Bəhramovun abidəsinin açılışı oldu. Mərasimdə FİFA-nın o vaxtkı prezidenti Jozef Blatter və qurumun İcrayyə Komitəsinin üzvü Mişel Platini də iştirak edirdi. Diqqətçəkən bilirsiniz nə idi? Tədbirə qatılmış ingilis azarkeşlər üzərində "Sağol, cənab Bəhramov!" yazılmış köynəklər geyinmişdilər...

O vaxt "Bakı-Xəbər" qəzeti üçün ingilislərin Bakı macərasından reportaj da hazırlamışdım. Yadımdadır, paytaxtın gecə klubları, əyləncə məkanları ingilis azarkeşlər tərəfiindən "zəbt" olunmuşdu. Qışqırıb-bağırır, mahnı oxuyur, alkoqollu işkiləri az qala vedrə ilə qəbul edirdilər… Bir neçə yerdə bir-birilə davaya da qalxmış, olduqları məkanlara böyük məbləğdə ziyan vurmuşdular. Gecə saatlarında küçədə zıbıl qutularını təpikləyən azarkeş dəstələri ilə də qarşılaşmışdım… Amma birinin burnunu qanatmadıq. Hansısa azarkeşin cibinə girən olmadı. Ümumiyyətlə, ingilis azarkeşlərin Bakıda olduğu günlər ərzində onların xətrinə dəyəcək hər hansı hərəkətə yol verilmədi, hər hansı birinə "gözün üstə qaşın var" deyən olmadı.

Sonrakı illərdə də Bakıya ingilis futbol azarkeşləri az gəlməyib. Mayın 29-da Bakıda final qarşılaşmasına çıxacaq klubların - "Çelsi" və "Arsenal"ın azarkeşləri də ilk dəfə deyil ki, Azərbaycana təşrif buyururlar. İki il əvvəl "Çelsi" Çempionlar Liqasının qrup mərhələsində "Qarabağ"la qarşılaşıb. Ötən il isə "Qarabağ" "Arsenal"ı Bakıya gətirib. Bu klublardan hansı birinin azarkeşi Bakıda xoşagəlməz hadisə ilə qarşılaşıb? Hansı birini "qaranlıq küçələrimizdə" soymuşuq? Ümumiyyətlə, bu vaxta qədər Bakıya gəlmiş ingilis azarkeşlərdən kiminsə başına bircə çırtma vurmuşuqmu? Yox əlbəttə, olmayıb. Elə isə Britaniya Xarici İşlər Nazirliyinin yaydığı xəbərdarlıq nədən və ya haradan qaynaqlanır? Dünyanın ən sabit və təhlükəsiz şəhərləri sırasında Bakının da adı çəkildiyi halda, Avroliqanın final oyunun paytaxtımızda keçirilmısinin məqsədəuyğun olmaması barədə rəy yaratmağa hesablanmış çalışmalar, "ehtiyatlı olun, qaranlıq küçələrdə gəzməyin" kimi "səyahət tövsiyələri" gülünc görünmürmü?

Bakı irimiqyaslı idman yarışlarının təhlükəsiz şəkildə keçirildiyi şəhərdir. Burada hər il onlarla qlobal xarakterli tədbirlər təşkil olunur. Paytaxtımız transmilli enerji və nəqliyyat layihələrinin reallaşdırıldığı şəhər kimi şöhrət qazanıb. Azərbaycana gələn turustlər buradakı təhlükəsiz mühitdən, insanlarımızın qonaqpərvərliyindən ağızdolusu danışırlar. İndi bu Britaniya XİN-dəkilərə və onların yaydığı "səyahət tövsiyəsi"ndən istifadə edərək ölkəmizin beynəlxaq nüfuzuna xələl yetirməyə çalışan məkirli dairələrə kim deyib ki, Bakıda, məsələn, Londondakı Vestminster, Xammersmit, Fulem, Kamden və sairə kimi kriminalın at oynatdığı, turistlərin nəinki cibi soyulan, anadan əmdiyi də burnundan gətirilən kvartal və rayonlara oxşar ərazilər var? Bakıda olmuş hansı ingilis turist onlara deyib ki, bizim paytaxta Londonun bir ildə hər kvadratmetrinə 4 min cinayət hadisəsi düşən mərkəzi rayonları ilə müqayisə oluna biləcək məhəllələrə rast gəlinir? Deyə bilməzlər, mümkün deyil. Yayılan çağırışların, narahatlıq ifadə olunan "tövsiyələrin" heç bir əsası yoxdur.

Səbəb sadədir və bildiyimizdir: hər dəfə Bakıda nüfuzlu beynəlxalq tədbirlər, böyük idman və musiqi yarışları keçirilərkən Azərbaycanın uğurlarını həzm edə bilməyən mərkəzlər hərəkətə keçir, ölkəmiz haqqında qarayaxma kampaniyaları aparırlar. Görünür, Bakının Avropa Liqası kimi nüfuzlu turnirin final qarşılaşmasına ev sahibliyi etməsi də həmin dairələrin yuxusunu ərşə çəkib. Tamamilə dəxli olmayan məsələlərin "ətəyindən" yapışanlar da var, dəfələrlə səsləndirilmiş və hər hansı real fakta söykənməyən iddialarla çıxış edənlər də. Xaricdən çalınan "zurnanın" sədası qulaqlarına dəymiş ölkədəki siyasət dəllalları da sevincək halda həmrəylik yallısı gedirlər… Nəymiş? Bəs deməzsənmi, Bakı barədə xoşagəlməz fikirlər söylənilib, ingilislərə deyilib ki, orada başınıza "pis işlər" gələ bilər. İçimizdəki həşəratlar da bundan xoşhal olub, Bakı Finalına qarşı kampaniyanı genişləndirməyə çalışır, öz qapımıza "qol vurmağa" can atırlar. Ay sizi yaramazlar, ay sizi…

Əlbəttə, boş və mənasız cəhdlərdir! Bakı Finala hazırdır və aparılan çirkli oyunların da həmişəki kimi nəticəsiz qalacağına heç kəsin şübhəsi olmasın. Bu qarşılaşmaya dünyanın 100-dən artıq ölkəsindən biletlər alınıb! Kimin nə deməsindən, hansı uydurma ilə çıxış etməsindən asılı olmayaraq, mayın 29-da bütün dünyanın diqqəti Bakıya yönələcək! Finalı izləmək üçün Bakıya gələcək turistlər Brtitaniya XİN-in yaydığı xəbərdarlığın da, bundan bəhrələnərək Azərbaycana qarşı növbəti qara oyunlar qurmağa çalışan dairələrin müəlliflik etdiyi çağırışların da əsassız olduğunu öz gözlərilə görəcək, Bakıya da, insanlarımıza da heyran qalacaqlar. Bu vaxta qədər keçirdyimiz hansı tədbirdən sonra belə hallar yaşanmayıb ki? Hansı yarışı, hansı konserti, hansı qlobal tədbiri nümunəvi keçirməmişik?..

Əminəm: Avropa Liqasının Bakı Finalı da göz qamaşdıracaq! Kim istəsə, "Göz çıxaracaq" kimi də oxuya bilər…

Hələ bu harasıdır, gələn il də Azərbaycanda futbol bayramı yaşanacaq. Avropa Çempionatının bir neçə oyununa ev sahibliyi edəcəyik. Hətta yarımfinal qarşılaşmalarından biri paytaxtımızda keçiriləcək.

Qısası, futbol azarkeşlərini nağıl kimi günlər gözləyir!

İnanıram, çox keçməyəcək ki, Bakı Çempionlar Liqasının da Finalına ev sahibliyi edəcək.

Gün gələr, Dünya Çempionatının həyəcanını da EVİMİZDƏ yaşayarıq!

Azərbaycan buna layiqdir!

Azərbaycan buna qadirdir!

**P.S. Əslində Britaniya XİN-i azarkeşlərə bir cümlə ilə müraciət etməliydi:"Siz İngiltərinin dünya çempionu olmasında müstəsna rol oynamış ƏDALƏTLİ HAKİMin vətəninə gedirsiz!"**



# Obamanın Əsəd rejimi ilə işbirliyi?

**ABŞ 2015-ci ildə Bəşər Əsəd rejiminin hakimiyyətdən devrilməməsi üçün Rusiya ilə danışıqlar aparıb.**

Baki-xeber.com xəbər verir ki, bunu keçmiş ABŞ prezidenti Barak Obama dövründə Müdafiə Nazirliyində (Pentaqon) müşavir köməkçisi olan Endryu Eksum deyib.

ABŞ-ın Suriyada Əsəd rejiminin yıxılmasından qorxduğunu bildirən Eksum, xüsusən 2015-ci ildə daha çox narahat olduğunu deyib: "O dövrdə Suriya məsələsində Rusiya ilə əməkdaşlıq etmək fikri mənim olduğum nazirlikdə qəbul edilmirdi, ancaq tapşırıq birbaşa prezidentdən gələndə əlimizdən gələni etdik. Bu proses 2015-ci ilin yayında başlayıb".

Eksum o vaxt Obamanın Əsəd rejiminin yıxılmasının həm Suriyada qeyri-müəyyənliyə səbəb olacağından, həm də İsrailin təhlükəsizliyinə təhdid yaradacağından narahat olduğunu qeyd edib. Obamanın Əsəd rejimi yıxılmasın deyə Rusiya ilə təmas qurulması tapşırığını verdiyini bildirən Eksum, nəticədə həmin vaxt Əsədin devrilmədiyini ifadə edib.

Eksum ABŞ-ın Suriyada iki əsas məqsədi olduğunu deyib: "Nəticədə bu müharibəni Rusiya və tərəfdaşları qazandı. Biz isə öz maraqlarımızı əsas götürdük - bunlar İsrailin təhlükəsizliyini təmin etmək və İŞİD-i məğlub etmək idi".

Pentaqonun keçmiş rəsmisi ABŞ-la Rusiya arasında Əsədlə bağlı danışıqların detallarını açıqlamayıb.

# Elkaponenin yaratdığı Rusiya azərbaycanlılarının yeni təşkilatında ittihamlar qızışır - Mirkazım Seyidov Diaspor Komitəsinə qarşı...

**Füzuli Məmmədovun (Frenk Elkapone) Rusiyada yaşayan azərbaycanlıları öz ətrafında birləşdirmək kimi iddiası hələ ki, səmərə vermir. Çox maraqlıdır ki, bu təşkilatla bağlı balaca da olsa tənqidi fikir səsləndirən, prosesi təhlil etmək istəyən hər şəxsə F.Məmmədov və onun "Facebook"dakı trolları tərəfindən sərt cavablar verilir. Ən əsası da, nisbətən müxalif mövqe sərgiləyən şəxslərə onlar tərəfindən "ermənipərəst" damğası vurulur.**

Hazırda Frenk cəbhəsi Rusiyada yaşayan tanınmış jurnalist Fuad Abbasova qarşı səfərbər olunub. F.Məmmədovun özü jurnalistin ünvanına sərt ittihamlar səsləndirib, onu təxribat törətməkdə, azərbaycanlıların diaspor işinə maneələr yaratmaqda ittiham edib. Bununla bağlı F.Məmmədov özünün "Facebook" hesabında yazıb: "Diaspor fəaliyyətinin nüanslarını bilməyən, diaspor fəaliyyətindən xəbərsiz olan soydaşlarımızı aldatmaq məqsədilə özünü Rusiyadakı azərbaycanlıların qəhrəmanı elan edən Fuad Abbasov "Misra" adlı vebsaytında yenə saxtakarlıqla, provokasiya ilə məşğuldur. Fuad son açıqlamasında bildirir ki, guya "AzərRos" prezidentliyinə mənim namizədliyim irəli sürülüb və "ümumxalq səsverməsi" keçiriləcəyi planlaşdırılır. Mən Məmmədov Füzuli Məmməd oğlu rəsmi olaraq bəyan edirəm ki, "AzərRos"la bağlı heç bir seçkiyə qatılmamışam, bu tamaşa provokasiya xarakteri daşıyır və heç bir hüquqi əsasa söykənmədiyi üçün, hüquqi qüvvəsi ola bilməz. Dünya Azərbaycanlıları Mədəniyyət Fondu və 27 aprel 2019-cü ildə Rusiya Federasiyasının əksər əyalətlərinin dəstəyilə yaradılan Rusiya Azərbaycanlıları İttifaqının prezidenti postunu qürur və şərəflə daşıyan azərbaycanlı kimi AZƏRROS-a ayıracaq nə vaxtım, nə istəyim var. Saxta vətənpərvərlərin hazırladığı bu provokasiyanın əsas məqsədi mövcud vəziyyəti müsbətə doğru dəyişdirmək yox, soydaşlarımızın milli hisslərindən istifadə edərək xal qazanmaq, şəxsi büdcələrini doldurmaqdır.

Ehtiyatlı olun, dələduz var!"

Soydaşlarımız tərəfindən birmənalı qarşılanmayan bu statusa Fuad Abbasov qısa cavab verib: "İtaliyalı biznesmen Frenk Elkaponeye jurnalist Fuad Abbasovdan müraciət: "Düşmənlə mübarizə aparmaq lazımdır, jurnalistlə deyil!!!"



Qeyd edək ki, tanınmış azərbaycanlı jurnalist Fuad Abbasov Azərbaycan və Türkiyənin müxtəlif problemlərinin Rusiyada qabardılması istiqamətində xeyli iş görüb. Buna görə işdən qovulub, hətta ermənilər tərəfindən ölümlə də təhdid olunub. Maraqlıdır ki, onun həyatına təhlükə yarandığı bir vaxtda F.Məmmədov onun müdafiə olunması üçün azərbaycanlılara müraciət etmişdi. Hətta onu qorumaq üçün zirehli avtomobil alacağını da bildirmişdi. Bundan cəmi 2-3 ay sonra həmin adamı təxribatda suçlamaq müəyyən sulallara yol açıb.

Diaspor fəaliyyəti ilə məşğul olan bəzi sosial şəbəkə istifadəçilərinin iddialarına görə, tərəflər arasındakı gərginlik heç də milli maraqlara, diaspor fəaliyyətinə görə deyil.

Qeyd edək ki, hazırda F.Məmmədovun yanında yer alan diaspor fəalı Mirkazım Seyidov da jurnalist F.Abbasovla bağlı ciddi əks kampaniya aparır. O, verdiyi müsahibədə jurnalistin ünvanına sərt fikirlər səsləndirib: "Bu gün F.Abbasov kimlərinsə sifarişini yerinə yetirən və azərbaycanlılar arasında çaxnaşma yaradan bir fiqura çevrilib. Deyir ki, guya ermənipərəst qüvvələrə qarşı tək vuruşur. Ancaq onun işi müxtəlif tok-şoularda iştirak etməkdir. Tok-şou da nədir? Hər bir açılan tok-şounun birinci məqsədi pul qazanmaqdır. F.Abbasov da orada müəyyən pul müqabilində iştirak edir. Sualları da, cavabları da əvvəlcədən müəyyənləşdirirlər. Deyirlər ki, belə suallar olacaq, belə cavab ver və oradan pul qazanırlar. Ona görə də tok-şoularda erməni faktorundan bəhrələnib, özünü millətpərəst kimi göstərmək lazım deyil. Vətənini sevən jurnalist vətənpərvər insanları antimilli hərəkətdə günahlandırmaz.

Siz gördünüz ki, F.Abbasov qurultay keçirilən günün axşamı çıxdı efirə və hamını aldatdı ki, məni ora dəvət etməyiblər. Halbuki, o da, ləğv olunmuş ÜAK-ın sədri Fazil Qurbanov da dəvət edilmişdi. "AzərRos"un rəhbəri Mehriban xanımı da biz ora dəvət etmişdik, gəlmədilər. Ağadadaş Kərimov qatı ermənipərəst olduğuna görə onu dəvət etmədik. Amma bunlar dəvət edilsələr də, gəlmədilər.

Sonradan Azərbaycandan getmiş jurnalistlərin təkidilə F.Abbasovu dəvət elədik ki, gəlsin söhbət edək. Onun haqqımızda iftiralar söyləməsinə baxmayaraq, Füzuli müəllim humanistlik göstərdi, barışıq mövqeyi tutdu. Ancaq həmin görüşdən sonra onun yalançı olduğu bir daha ortaya çıxdı. Orada səmimi şəkildə söhbət apardıq, əlaqəli şəkildə fəaliyyət göstərməklə bağlı razılığa gəldik. Ancaq çox keçmədən yenə başladı bizə iftira atmağa. Bu da göstərir ki, onu kimlərsə idarə edir. Çox qeyri-səmimi bir adamdır".

F.Məmmədovun hazırda "uzaq vuran toplarından" sayılan Mirkazım Seyidov müsahibəsində diaspor sahəsindəki geriləmədə Diaspor Komitəsi və xarici ölkələrdəki səfirlikləri mizi də günahkar sayıb: "Əvvəla qeyd edim ki, dediyiniz problemin səbəbləri çoxdur. Hətta Dünya azərbaycanlılarının sonuncu qurultayında cənab Prezidentin çıxışında da bu öz əksini tapıb. Cənab Prezident göstərdi ki, diaspor təşkilatları hansısa siyasi qüvvənin deyil, Azərbaycan dövlətinin, xalqının maraqlarına xidmət etməlidirlər. Ancaq çox təəssüf ki, uzun illər ərzində bəzi dövlət orqanları, o cümlədən, Diaspor Komitəsi, xaricdəki səfirlik və konsulluqlarımız öz fəaliyyətlərində bu tezisi rəhbər tutmayıblar. Nəticədə diaspor təşkilatlarına düzgün münasibət göstərilməyib. Diaspor Komitəsi ilə xaricdəki səfirliklərimiz arasındakı ziddiyyətlər də diaspor təşkilatlarının vahid mövqeyinin formalaşmasına inkan verməyib. Təəssüflər olsun ki, bu ziddiyyətlər bu gün də mövcuddur, onun aradan qaldırılması istiqamətində konkret işlər görülməyib. Bu, Azərbaycanın diaspor təşkilatlarının güclü olmamasının ən böyük səbəblərindən biridir".

Dünya Azərbaycanlıları Konqresi icra aparatının rəhbəri Samir Adıgözəlli "Bakı-Xəbər"ə bildirdi ki, F.Məmmədovun və ətrafının fərqli fikrə qarşı belə aqressiv münasibəti başadüşülən deyil: "Biz bu yolda böyük əmək sərf etmişik. Geniş təcrübəmiz var. Gedən son proseslərlə bağlı fikir bildirəndə təhqirə məruz qalırıq. Şəxsən bu məsələ ilə bağlı, məhz sizin qəzet vasitəsilə bildirdiyim münasibətdən sonra sosial şəbəkələrdə təhqir edildim. Frenk böyük bir trol ordusu saxlayır. Onların kənara qoyuram. Frenkin ətrafında olan Səftər Rəhimli mənim paylaşımımın altında bir video-material yerləşdirdi. Açıq-aşkar bizi ermənipərəstlikdə suçlayırdılar. Bu nə biabırçılıqdır? Nə vaxtdan bəri Frenki və ya onun gördüyü işi tənqid etmək ermənipərəstlik kimi qəbul olunmağa başlayıb? Axı F.Məmmədov bu müqəddəsliyi harda qazanıb ki, onu tənqid etmək az qala milli xəyanətə bərabər tutulur? Yəni demək istəyirəm ki, belə basqıya məruz qalan tək jurnalist F.Abbasov deyil. Xahiş edirəm, o sıraya mənim də adımı əlavə edəsiniz. Bu təşkilat elan olunan gündən intriqa yuvasına çevrilib. Ancaq qalmaqalla gündəmə gəlirlər. Hesab edirəm ki, təməli bu şəkildə qoyulan təşkilatdan ciddi nəsə gözləməyə dəyməz".

*Məhəmmədəli QƏRİBLİ*

# İngilis bu yandan, çörəyi ingilisdən çıxan azərbaycanlılar o yandan - anti-Azərbaycan kampaniyasının növbəti iflası...

**İndiyə qədər etdikləri bütün cəhdlərə baxmayaraq, anti-Azərbaycan dairələrin ölkəmizə qarşı bütün məkrli niyyətləri iflasa uğrayıb. Amma görünən budur ki, məğlubiyyət sindromu hələ də belə dairələrə dərs olmayıb. Elə bunun nəticəsidir ki, UEFA final oyunun Bakıda keçiriləcəyini bəyan etdiyi gündən bəri Azərbaycana qarşı kampaniya da geniş vüsət alıb. Qarayaxma, böhtan, yalanlar, iftiralar yenə baş alıb gedir.**

Bütün bunların kökündə dayanan əsas niyyət də mayın 29-da Bakıdakı Olimpiya Stadionunda UEFA Avropa Liqasının final oyunları fonunda Azərbaycanın imicini zədələməkdir. O da maraqlıdır ki, belə məkrli fəaliyyət fonunda ölkənin radikal müxalifət düşərgəsini təmsil edən müəyyən şəxslər, Azərbaycanı tərk edib müxtəlif bəhanələrlə xaricə sığınanlar da eyni vaxtda fəallaşıb ölkəyə qarşı hədyanlar yağdırır.

Amma ötən illərin təcrübəsi göstərir ki, istənilən halda belə fəaliyyət yenə iflasa məhkum olacaq. Ən azı o baxımdan ki, 2012-ci ildə baş tutan "Eurovision", 2015-ci ildə keçrilən Avropa Oyunları, 2016-cı ildə İslam Həmrəyliyi Oyunları, "Formula-1" avtoçempionatının Bakı Qran-Prileri və digər tədbirlər ərəfəsində də Azərbaycan belə məkrli kampaniyalarla üzləşib. Amma həmin məkrli kampaniyaları aparanlar qarşılarına qoyduqları siyasi hədəflərə çata bilməyiblər. Elə indinin özündə də məkrli qüvvələrin eyni aqibətlə üzləşməsi qaçılmaz sayılır. Sadəcə, burada məsələnin narahatlıq yaradan tərəfi odur ki, idmanı siyasiləşdirirlər, futbolu təzyiq vasitəsinə çevirməyə çalışırlar. Məhz bu vəziyyət kifayət qədər təhlükəli hal sayılır. Amma yenə anti-Azərbaycan dairələr var qüvvələri ilə çalışırlar ki, dünya ictimaiyyətində ölkəmizin nüfuzuna xələl gəlsin. Belə dairələrin indi əsas niyyəti onun üzərində cəmləşib ki, Avropa Liqasının final matçının Azərbaycanda keçirilməsi məqsədəuyğun deyil. Halbuki, bunun üçün heç bir tutarlı arqument də göstərilmir. Məsələnin mahiyyətinə varanda isə yenə köhnə havaların çalındığı görünür. Məsələn, Azərbaycanda insan hüquqları və qanunlara riayət məsələsi yenə ön plana çxarılır. Halbuki, Qərb ölkələrində, o cümlədən də İngiltərədə baş verənlər insan haqları məsələsində Azərbaycanın bir çox hallarda həmin ölkələrdən daha öndə olduğunu göstərir. Yəni bu sahədə vəziyyət Qərb ölkələrindən heç də pis deyil. Əksinə, bir çox hallarda Azərbaycan burada nümunə rolunu oynaya bilər. Digər tərəfdən, Qərb ölkələrinin bir çoxunda polisin nümayişçilərə qarşı ifrat güc tətbiq etməsi barədə səhnələr yaddaşlardan silinməyib. Elə Fransanın indiki günlərinə baxdıqda bunun çoxsaylı təsdiqini aydın görmək olar. Belə bir vaxtda UEFA Avropa Liqasının Bakıda keçiriləcək final oyunu ərəfəsində Böyük Britaniya Xarici İşlər Nazirliyinin yaydığı Azərbaycana aid səyahət tövsiyələri də olduqca təəccüb doğurur. Belə ki, qurum ingilis futbol fanatlarını Bakıda "əcnəbilərin baş çəkdiyi barların ətrafında soyğunçuların hücumlarına məruz qala biləcəkləri" haqda xəbərdar edib. Artıq Azərbaycan Xarici İşlər Nazirliyi bu əsassız iddialara öz cavabını verib. Məsələnin maraqlı tərəfi isə budur ki, beynəlxalq miqyasda Azərbaycan ən sabit ölkələrdən biri qismində qəbul olunur, bunu yayılan çoxsaylı hesabatlar da təsdiq edir. Eyni zamanda, daha əvvəl keçirilən idman yarışları Azərbaycanda əcnəbi qonaqları heç bir təhdid gözləmədiyini praktik olaraq sübut edib. Elə bu günlərdə baş tutan "Formula-1" yarışı bunun növbəti təsdiqi oldu. "Formula-1"i izləmək üçün İngiltərə və digər Avropa ölkələrindən gələnlər heç bir problem olmadan, hansısa çətinliklə üzləşmədən yarışları izlədi, ciblərinə uyğun otellərdə qaldı, qonaqpərvərliyimizdən faydalandı. Dünyanın aparıcı maliyyə və analitik jurnallarından biri olan "Global Finance"ın "2019-cu il dünyanın ən təhlükəsiz ölkələrinin" reytinqi də Azərbaycanın regionda ən təhlükəsiz ölkə olduğunu təsdiqləyir. İndiyə qədər dünyanın ən mötəbər idman turnirlərinə ev sahibliyi etməyimizin başlıca səbəbi də məhz təhlükəsizlikdir. Amma nədənsə, bütün bunları görməzdən gəlirlər.



Burada çox da uzağa getmədən daha bir vacib məqamı xatırladaq. Məlumdur ki, 2017-ci il 23 may tarixində Mançester şəhərində 22 nəfərin ölümü, 59 nəfərin yaralanması ilə nəticələnən dəhşətli terror aktı törədilib. Burada diqqətçəkən məqamdır ki, terror aktı beynəlxalq futbol turnirlərinin keçirildiyi "Mançester Arena" stadionunda baş verib. İngilis rəsmilərinin bunun barəsində düşünmək əvəzinə Azərbaycana irad tutmaları sadəcə gülünc xarakter daşıyır. Amma belə görünür ki, Azərbaycana qarşı iradların ortaya çıxması konkret kampaniya xarakteri daşıyır və burada bütün vasitələrdən istfiadə olunur. Həmişəki kimi, radikal müxalifətin əksər təmsilçiləri, xüsusən də AXCP, Milli Şura bu məsələdə anti-Azərbaycan qüvvələrin yanında yer alır. Avropada oturub Azərbaycana qarşı iş aparanlar da eyni vaxtda fəallaşıblar. Sosial şəbəkələr üzərindən Azərbaycana qarşı hədyan yağdıranların məhz indiki vaxtda aktivləşməsi təsadüf sayıla bilməz. Yaxud da NİDA-nın tərəfdarı olan Nadir Rzayev, vergidən yayınmaq kimi cinayətlərə imza atmış Azər Əliyev, jurnalistikadan xəbəri olmayıb Azərbaycana şər atmaqla məşğul olan Alış Abdullayev, Azərbaycanda olarkən "torpaq davası" salmaq üzrə ad qazanmış Emin Manafovun Berlində təşkil etdiyi aksiyanın məhz indiki vaxtda baş tutması da, yəqin ki, sadəcə təsadüf deyil. Belə görünür ki, bütün bunlar ölkəmizə qarşı yönəlmiş yeni kampaniyanın ayrı-ayrı tərkib hissələridir. Yenə də həmişəki kimi, bu kampaniyanın əsas mahiyyəti məhz Azərbaycana hər cür hədyan, böhtan yağdırmaq, ölkənin uğurlarına xələl gətirməkdir. Bu prosesdə sapı özümüzdən olan baltalar aktiv şəkildə iştirak edir və şübhə yoxdur ki, prosesdə erməni lobbisi və onlara bağlı qüvvələr də var. Elə Avropada sapı özümüzdən olan baltaların onların göstərişi ilə aktivləşməsi də istisna olunmur. Amma bir məsələ dəqiqdir ki, istənilən mənfur kampaniya Azərbaycanın dünyada nüfuzunun artmasına, onun yüksək səviyyəli iqtisadi, siyasi, nəqliyyat və humanitar mərkəzə çevrilməsinə manеə yarada bilməyəcək. Xarici anti-Azərbaycan dairələrin mühüm tədbirlər ərəfəsində ölkəmizə qarşı belə qərəzli kampaniyalar təşkil etməsi isə, yuxarıda qeyd olunduğu kimi, iflasa uğrayacaq. Ölkəmiz bundan sonra da qlobal xarakterli tədbirlərin keçirildiyi əsas məkanlar sırasında yer alacaq. Elə Avropadan çoxsaylı azarkeşlər də həm mayın 29-da keçiriləcək futbolu, həm də bundan sonrakı digər yarışları izləmək üçün Bakıya, ölkənin digər bölgələrinə axışacaq.

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistan cəmiyyətində Qarabağ parçalanması - Paşinyan prosesi anbaan müharibə relsinə yönəldir...

**Ermənistanın mövcud hakimiyyətinin həyata keçirdiyi siyasətdə hər hansı dəyişiklik olmayacağı təqdirdə Dağlıq Qarabağ münaqişəsinin güc yolu ilə çözülməsi qaçılmaz olacaq. Çünki İrəvan indiki gedişləri ilə problemin sülh müstəvsisində çözümünə hər hansı ümid yeri qoymayaraq, sadəcə yeni savaşı tətikləyir. Bunu Ermənistanın baş naziri Nikol Paşinyanın münaqişə ilə bağlı son bəyanatı da təsdiqləyir.**

Keçən dövr ərzində atəşkəsin sülhə çevrilməməsinə təəssüf etdiyini billdirən Paşinyan özünün yeni məsuliyyətsiz yanaşması ilə növbəti dəfə danışıqlar prosesini pozmaq niyyətini nümayiş etdirib. Belə ki, Paşinyanın Qarabağ separatçılarının danışıqlar prosesinə cəlb edilməsi ilə bağlı təşəbbüsünün rədd edilməsi barədə ATƏT-in Minsk Qrupunun son bəyanatlarına, həmçinin danışıqların formatının dəyişdirilməsinə qarşı çıxmış Azərbaycan prezidenti İlham Əliyevin qəti mövqeyinə baxmayaraq, Ermənistanın baş naziri yenə əks mövqedən çıxış edib. O, separatçıların da danışıqlar prosesində tərəf kimi çıxış etməsinin vacibliyini önə çəkib. Halbuki, bundan əvvəl qeyd olunan xüsusda edilən cəhdlərə görə təkcə Bakı yox, bütün dünya, o cümlədən ATƏT-in Minsk Qrupunun həmsədr ölkələri Paşinyanı kəskin şəkildə qınayıb və danışıqlar formatının dəyişməz olduğunu onun diqqətinə çatdırıblar. Amma Paşinyanın yenidən analoji mövqe sərgiləməsi artıq Qarabağ savaşını qaçılmaz edir.

Ermənistan hökumət başçısının cavabını verən Azərbaycan tərəfi də məsələnin bu məqamını qabardır. Prezident Administrasiyası xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev qeyd edir ki, 25 il ərzində atəşkəsin davamlı sülhə çevrilə bilməməsinin əsas səbəbi Ermənistanın işğalçılıq siyasətini davam etdirməsidir: "Atəşkəs sülh deyil. Ermənistan rəhbərliyi tərəfindən də etiraf olunur ki, 25 il keçməsinə baxmayaraq, atəşkəs davamlı sülhə çevrilməyib. Bu müddət ərzində atəşkəsin davamlı sülhə çevrilə bilməməsinin əsas səbəbi Ermənistanın işğalçılıq siyasətini davam etdirməsidir". H.Hacıyevin sözlərinə görə, danışıqlar prosesinin formatı dəyişməzdir və münaqişə tərəfləri olan Ermənistan və Azərbaycan arasında aparılır: "Ermənistan tərəfi həqiqətən regionda davamlı sülhün təmin olunmasını istəyirsə, mövcud format əsasında danışıqlar prosesində konstruktiv şəkildə iştirak etməli, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə uyğun olaraq öz qoşunlarını Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarmalı, azərbaycanlı məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtmasına mane olmamalıdır. Yalnız bundan sonra regionda davamlı sülh təmin oluna bilər".

Aydındır ki, İrəvanın bu şərtlərə qarşı çıxması yeni Qarabağ savaşını qaçılmaz edəcək. Bunu erməni politoloq Hayk Martirosyan da xüsusi olaraq qeyd edir. Onun sözlərinə görə, danışıqlar formatı ətrafında Paşinyanın qeyri-sabit mövqeyi savaşın başlanmasını qaçılmaz edə bilər: "Ermənistan rəhbərliyi yeni savaşın ölkəmiz üçün nə ilə nəticələnəcəyini yaxşı bilməlidir. Ermənistan yeni savaşa hazır deyil, nə ordumuz, nə də iqtsaidiyyatımız buna imkan verir. Bu mənada hesab edirəm ki, hakimiyyət danışıqların indiki mühitindən imtina etməyə kifayət qədər iradəyə malik deyil. Ermənistanın Qarabağ münaqişəsinin nizamlanması məsələsindəki mövqeyi dəf edilən vəziyyətdə qalmaqda davam edir". Martirosyan bildirib ki, yeni hakimiyyət sözlərlə manevr etməyə, "Madrid prinsipləri"ndən yayınmağa cəhd etsə də, istənilən halda bu prisipləri heç kim ləğv etməyib: "Madrid prinsipləri" gündəlikdə qalmaqda davam edir. Lakin Ermənistanın indiki hakimiyyətinin danışıqların təhlükəli mühitindən imtina etməyə kifayət qədər iradəsi yoxdur. Ermənistan rəhbərliyi Qarabağın danışıqlar masasına qaytarılması zərurəti haqqında söhbətlərlə bundan yayınmağa çalışır. Amma belə vəziyyət Ermənistan üçün təhlükəlidir. Belə durumda müharibə həmişə bizi təhdid edir. Azərbaycan münaqişəni hərb yolu ilə həll etməkdən heç vaxt imtina etməyib". Martirosyan hesab edir ki, siyasi müstəvidə həlelik hər şey pis vəziyyətdədir. O əmindir ki, Nikol Paşinyan və Azərbaycan dövlət başçısı İlham Əliyevin Düşənbədə əldə etdiyi razılaşmalar arzuolunan nəticələri verməyib: "Bunun əvəzinə Bakı münaqişə zonasında mühəndis bərkitmə işlərini görməyə imkan əldə etdi. Erməni tərəfi isə Düşənbədəki lift razılaşmasına əsaslanaraq bu işlərin qarşısını almaq üçün heç bir tədbir görmədi".

Digər tərəfdən belə görünür ki, yaranmış durumda Azərbaycanın ardıcıl şəkildə öz hərbi gücünü artırması Ermənistanda böyük təşvişlə qarşılanır. Hesab olunur ki, Bakı məsələnin güc yolu ilə də həllinə ciddi hazırlıq görür. Bunun əvəzində isə İrəvanın yarıtmaz daxili və xarici siyasəti Ermənistanın qarşısına daha ciddi geosiyasi, hərbi və iqtisadi problemlər çıxarmaqdadır. Nikol Paşinyanın hakimiyyətə gəlməsinin Ermənistanda bu vəziyyəti artıq dərinləşdirdiyini artıq ekspertlər açıq etiraf edir. Bura, xüsusən də Qarabağ münaqişəsi şamil edilir. Ermənistanda hesab olunur ki, Paşinyanın gedişləri Qarabağ məsələsində ölkəni daha dərin uçruma sala, ən əsası isə, təhlükəli savaşa sürükləyə bilər. "Qraparak" nəşri bu xüsusda yazır: "Ölkə təhlükə qarşısındadır və bunun qarşısını almaq üçün müraciət edilə biləcək rəhbər yoxdur. Bomba üzərində olan vəziyyətə düşmüşük və saat işləyir. Bu partlayacaq. Lakin necə saniyə, necə dəqiqə sonra...".

Yazıda hazırda Ermənistanda dövlət təhlükəsizliyinin əsaslarını sarsıdan böyük qrupun iş başında olduğu "böyük təşvişlə" qeyd olunur: "Hazırda dövlət təhlükəsizliyinin əsaslarını sarsıdan böyük qrup iş başındadır. Onlar müharibə iştirakçılarını sıfır vəziyyətinə endirməyə çalışırlar. Bu qrup Qarabağı zərbə altında qoyur. Saxta profillər geniş iş aparır. Bu da döyüş imkanları azalan ordunu daha iflic duruma salır. Azərbaycan bütün bunları diqqətlə izləyir".

Maraqlıdır ki, Ermənistan parlamentinin müdafiə və təhlükəsizlik üzrə daimi komissiyasının sədri, Paşinyanın lideri olduğu "Mənim Addımım" fraksiyasının deputatı Andranik Köçəryan da eyni qaydada həyəcan təbili çalır. O bildirib ki, Ermənistan ordusunda baş verən cinayətlərin real yaranma səbəbləri və mövcud durum təhlükəli hallardan xəbər verir: "Bir neçə faciəli məqam üzərində dayanmağa üstünlük verərdim. Bu sözlər ilk növbədə zabitlərə aiddir. Ermənistan baş prokurorunun məruzəsindən belə məlum olur ki, 2018-ci il ərzində 138 zabit dindirilməyə çağırılıb. Lakin Ermənistanda hərbi təhsil müəssisələrində il ərzində bundan daha az zabit hazılanır. 2018-ci ildə Ermənistan ordusunda törədilən cinayətlərin 25.7% zabitlərin payına düşür. Müddətli xidmət hərbi qulluqçuları və zabitlərin say tərkibinə baxdıqda məlum olur ki, zabitlər daha çox cinayət törədir. Bu vəziyyət utanc yox, faciəvi əlamətdir". Digər bir məqam olaraq Ermənistan ordusunda intihar hallarına diqqət çəkən Köçəryan qeyd edib ki, bu hal orduda hökm sürən mənəvi-psixoloji vəziyyətdən əlavə, cəmiyyətdə ciddi narazılığa səbəb olur: "Orduya inam azalır. Bu vəziyyətdə Azərbaycanla savaşın yenidən başlaması çox ciddi problemləri üzə çıxarmaq iqtidarındadır. Hər halda, indiki vəziyyətdə mən savaşın qəti şəkildə əleyhinəyəm". Ermənistanda "Sülh dialoqu" təşkilatının eksperti Ruben Martirosyan da bildirir ki, bu durumda Azərbaycanla danışıqlara getmək və razılıqlar əldə etmək daha məqbul olardı: "Daha Azərbaycanı qıcıqlandıran mövqe sərgiləmək lazım deyil. Gəlin, reallığı unutmayaq. Ötən dövr ərzində Azərbaycan xeyli güclənib və bura onun ordusu da aiddir. Bizdə ordu nə ilə gündəmə gəlir? Daha çox itkilərlə, intiharlarla. Ermənistanda cinayətkar müstəntiqlər, hakimlər və prokurorlar hələ də hərtərəfli istintaq araşdırması aparmaq istəmirlər. Ermənistanın Apelyasiya məhkəməsində orduda öldürülən erməni hərbi qulluqçu Arman Muradyanın atası Hovsep Muradyanın hüquqlarını müdafiə edirəm. Amma bu prosesdə bir daha bəlli oldu ki, ciddi problemlər var. Ermənistanda hüquq-mühafizə orqanları tərəfindən yaradılan və təşviq edilən maneələr mövcuddur. Ermənistan baş prokuroru Artur Davtyanla yanaşı, İstintaq Komitəsinin sədri Hayk Qriqoryan, o cümlədən keçmiş rəhbərlər Ermənistan ordusunda baş verən qətl hadisələrini yanlış araşdırırlar. Xüsusilə Arman Muradyanın işində iştirak edən hakim Andranik Mnatsakyan tərəfindən birtərəfli istintaq aparılır. İnqilabdan sonrakı dövrdə cinayətkar müstəntiqlər, hakimlər və prokurorlar hələ də hərtərəfli istintaq araşdırması aparmaq istəmirlər. Bax, ordumuzda real vəziyyət budur. Buna görə yaxşı olardı ki, Qarabağ münaqişəsini danışıqlar yolu ilə həll edək".

Ümumiyyətlə, Ermənistanda münaqişənin həllinə yanaşmada fərqlər getdikcə özünü daha çox göstərir. Bir qrup Azərbaycanla dil tapmağın zəruriliyini anlayır. Digərləri isə qətiyyətlə buna qarşı çıxır. Hələlik barışmaz mövqedə olanlar çoxluq təşkil edir. Ancaq Ermənistanın dövlət olaraq tənəzzülə uğraması və sonu görünməyən hakimiyyət uğrunda mübarizə tamamilə fərqli durum yarada bilər. Ölkədə mövcud daxili ziddiyyətlərin fonunda siyasi güclərin palitrası və onlar arasındakı münasibətlərin məzmunu gərginliyin artması ehtimalını xeyli yüksəldir. Maraqlıdır ki, məhz Paşinyanın hakimiyyətə gəlişi ilə erməni siyasi mühiti həm sürətlə parçalandı, həm də ziddiyyətlərin sayı artdı. Belə vəziyyət də işğalçı ölkənin təcavüzkar Qarabağ siyasətini davam etdirə bilməsini əhəmiyyətli dərəcədə əngəlləyir. İndi erməni cəmiyyətində Paşinyanın bu reallığı nəzərə almasına yönəlik çağırışlar da artır. Amma indilikdə erməni baş nazir inadkarlıq göstərir. Halbuki, bunun nəticəsi Ermənistana daha böyük fəlakətlər vəd edir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Milli Təhlükəsizlik Xidmətinin rəy sorğusu Ermənistanda yeni "məxməri inqilab" söhbətlərini gücləndirdi

**İşğalçı Ermənistanda mövcud vəziyyətin təhlili burada hakimiyyətlə cəmiyyət arasında yenidən ciddi uçurumun yaranmaqda olduğunu göstərir. Çünki baş nazir Nikol Paşinyan ötən bir il ərzində ölkədə müsbətə doğru hansısa yenilik etməyi bacarmayıb. Bəzi ekspertlər isə bu qənaətdədir ki, yaranmış vəziyyətdə baş nazir diqqəti daxili narazılıqlardan yayındırmaq üçün, əvvəlki hakimiyyətlərin etdiyi kimi, əsas diqqəti Dağlıq Qarabağ münaqişəsinə yönəltməyə çalışır.**

Cəbhədə atəşkəs hallarının yenidən intensiv şəkildə pozulması, Paşinyanın yenə separatçı rejimin danışıqlar prosesinə cəlb edilməsinin vacibliyini vurğulaması məhz bundan qaynaqlanır. Amma real vəziyyət budur ki, bütün bunlar da Paşinyanı iflasdan xilas edə bilmir.

Məhz belə bir vaxtda Ermənistan Milli Təhlükəsizlik Xidməti Nikol Paşinyanın reytinqini müəyyənləşdirmək məqsədilə sorğu keçirib. "Jamanak" qəzeti yazır ki, sorğuda növbəti antirekord qeydə alınıb: "Sorğunun nəticələrinə görə, Paşinyanın reytinqi azalmaqda davam edir. Bu dəfə yeni antirekord qeydə alınıb. Belə ki, Paşinyanı rəyi soruşulanlardan yalnız 34 faiz dəstəkləyir". Qəzet xatırladıb ki, cəmi üç ay əvvəl keçirilən rəy sorğusunda Paşinyanın reytinqi indikindən 30 faiz çox - 64-65% civarında olub. Paşinyanın reytinqi cəmiyyətin bütün təbəqələrində və yaş qrupları arasında azalır. Bunun ümdə səbəblərindən biri isə sosial-iqtisadi sahədə yaranan problemlərdir. Erməni mediası belə vəziyyətdə diqqəti ona yönəldir ki, Paşinyanın hakimiyyətdə olduğu bir əl ərzində, yəni 2018-ci ilin aprelindən indiyə qədər Ermənistanda unun qiyməti 6,2, çörəyinki isə 5,3 faiz artıb. Bu ölkədə mal əti, digər məhsulların da qiyməti əhəmiyyətli dərəcədə artıb. Rəsmi rəqəmləri şərh edən iqtisadçı Suren Parsyan isə bahalaşma prosesinin davam edəcəyini deyib: "Un və çörəyin qiymətlərinin artması bu sahədə inhisarçılığın güclənməsi ilə bağlıdır. Digər tərəfdən, bu ölkənin buğdaya olan tələbatı da idxal hesabına təmin edilir. Hazırda Ermənistanda böyük taxıl qıtlığının olduğu bildirilir". Parsyan qeyd edib ki, Ermənistan hökuməti kənd təsərrüfatının inkişafı ilə ciddi məşğul olmur: "Ölkədə bu sahədə həyata keçirilən layihələr də çox rissqlidir. Kənd Təsərrüfatı Nazirliyinin optimallaşdırılması adı altında onun ləğv olunaraq İqtisadi İnkişaf Nazirliyinə birləşdirilməsi üzrə həyata keçirilən tədbirlər də öz mənfi təsirini göstərir".

Digər ekspert Albert Mikaelyan isə "worldandwe.com" portalında dərc etdiyi yazıda problemin kökünün daha dərində olduğunu vurğulayır: "Getdikcə daha da aydın olur ki, Ermənistanın "inqilabi" baş naziri və onun iqtisadi müşavirlərinin təklif etdiyi tədbirlər məhvedici neoliberal reseptlər çərçivəsindən qırağa çıxmır. Bu, Ermənistandan baxarkən özəlliklə açıq görünür. Bir yandan, "məxməri inqilab" nəticəsində hakimiyyətə gəlmiş şəxslər hər tində ölkənin keçmiş rəhbərliyinin gətirdiyi böhran haqda bağırmaqdan usanmır, o biri yandan, bundan çıxmaq üçün neoliberalizm iqtisadi məktəbinin ən ənənəvi reseptlərini təklif edirlər. Bu isə Ermənistanda əndazəni aşaraq xalqın tamamilə əsaslı qəzəbini doğuran önəmli sosial təbəqələşməyə gətirib.

Nikol Paşinyan, sadəcə, neoliberal iqitsadi ilgək olan belə bir yanaşmada Ermənistanın onsuz



da yoxsul əhalisinin ödəməli olacağı xeyli xarici borca girməli olacaq. Bunun son olacağı isə artıq heç bir şübhə doğurmur. Çünki hökumət təxirəsalınmaz tədbir kimi proporsional gəlir vergisinin tətbiqini təklif edib. Yəni vergi yükü həm pineçi, həm də dollar milyoneri üçün eyni olacaq: hamısı indi 23 faiz vergi ödəyəcək. Düzdür, tariflər yeni sistem daxil ediləndən beş il sonra 20 %-dək düşməlidir. Amma bunun belə olacağı faktlıqdan uzaqdır. Və özəlliklə əsla fakt deyil ki, ən yoxsullar da, Nikol Paşinyan hökumətinin özü də bu "xoşbəxt" çağa qədər "yaşayacaqlar".

Əlbəttə, Ermənistan "neoliberalları" neoliberalizmə də ötəri bələddir, ənənə kimi sosial müavinətləri azaltmağı təklif edirlər, özü də bu tədbir işsiz qalanlara da toxunacaq. Və əlbəttə, "dövlət qulluqçularının sayının ifratcasına azaldılmasının gərəkliliyi" haqda neoliberal mövqe dərhal səslənir. Hökumətin fikrincə, bütün bu coşğun fəaliyyətin nəticəsi "Ermənistan iqtisadiyyatının canlanması, korrupsiyanın kökünün kəsilməsi və Ermənistan əhalisinin yaşayışının ümumi yaxşılaşması" olmalıdır. Amma şəxsən mənə elə gəlir ki, hər şeydən göründüyü üzrə, xarici erməni diasporlarını sayca önəmli artım gözləyir, çünki hər erməni belə neoliberal axtarışlara tab gətirə və qatlaşa bilməz.

Mən ehtimal edirəm ki, indiki hökumətin şüurundakı ikiləşmə, sadəcə, göz qabağındadır. Onun beyninin bir yarısı görür ki, ölkənin iqtisadi durumu pisləşir və nə etməli olduğunu bilmir. İkinci yarısı isə qaçılmaz iqtisadi çöküşdən və növbəti dəfə aldadılan əhalinin qəzəbindən qorxaraq nə praktikaya, nə də idarəçilik təcrübəsinə malik olmadan okeanın o tayındakı görkəmli olmaqdan uzaq xarici iqtisadçıların reseptlərindən saman çöpü kimi yapışır və ermənilərin gözünə kül üfürməyə başlayır.

Nikol Paşinyan hökumətinin iqtisadi iqtidarsızlığı gec, ya tez, təkcə ölkə içində deyil, həm də xarici siyasət arenasında iflasa gətirməlidir. Və ilk təşvişli siqnal artıq səslənib: Paşinyan və Əliyev arasında 2019-cu il martın 29-da Vyanada baş tutan danışıqları Azərbaycanda qeyd-şərtsiz qələbə kimi qəbul ediblər. Azərbaycan parlamentində hesab edirlər ki, İlham Əliyev Nikol Paşinyanı hərfi mənada diz çökməyə vadar edərək, onu "Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsində Azərbaycanla razılaşmağa məcbur edib". Yada salım ki, Paşinyan Dağlıq Qarabağın özünü saziş tərəfi kimi Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə cəlb etməyi bir nömrəli vəzifə kimi hər tində car çəkirdi. Amma, necə deyərlər, "türkü çox səslənmədi"… Və Ermənistan baş nazirinin növbəti səs-küylü vədi adicə gəvəzəlik çıxdı. Və indi Ermənistan vətəndaşlarının xeyli hissəsinin gözündəki "məxməri örtük" düşməyə başladıqca hakimiyyət daha pis yollara düşür ki, bu qurumlarda mümkün qədər çox qalsın. Və budur, 2018-ci ilin sentyabrında Paşinyanın "Mənim addımım" partiyasından İrəvan meri olmuş Ayk Marutyan şəhərdə avtobusla gəzməyə başlayıb. Ola bilsin bu, ucuz populizm baxımından düzgündür də, amma çox görməyə və oturmağa macal tapacaqmı? Görünür, Paşinyanı və tərəfdarlarını düşündürən başlıca məsələ gerçək iş deyil, sadəcə, piar və mümkün qədər uzun müddətə öz imiclərini saxlamaqdır".

Bütün bunlar isə yaxın tezlikdə Ermənistanda vəziyyətin daha gərgin mərhələyə qədəm qoyacağını deməyə əsas verir.

***Tahir TAĞIYEV***



# Ermənistanda Rusiya bayrağını tapdalayan şəxs qubernator təyin olundu

**Ermənistanda ötən il Araqatsotn vilayətinin qubernatoru təyin olunmuş David Gevorqyanın bir neçə il əvvəl etiraz aksiyası zamanı Rusiya bayrağımı tapdaladığı məlum olub.**

"Trend"in erməni KİV-inə istinadən məlumatına görə, dörd il əvvəl D.Gevorqyan Rusiya səfirliyi qarşısında etiraz aksiyasında iştirak edib.

Etirazçılar Rusiya bayrağını yandırmaq istəsələr də, polis bu addıma imkan verməyib və bu zaman indiki qubernator bayrağı tapdalayıb.

**Ermənistan parlamentində müxalif "İşıqlı Ermənistan" partiyasının deputatı Edmon Marukyan hökumətdən bu şəxsin qubernator təyin olunması ilə bağlı izahat tələb edib.**

# Birinci kvartalda könüllü sığorta 17 faiz azaldı - sığorta bazarımızda nə baş verir...

**Bu ilin yanvar-mart aylarında Azərbaycanda könüllü sığorta növlərinin hesabına 129 milyon 948 min manat sığorta haqqı toplanıb. Maliyyə Bazarlarına Nəzarət Palatasının statistikasından belə məlum olub ki, könüllü sığorta yığımları ötən ilin eyni dövrü ilə müqayisədə 17,3 faiz azdır.**



*"Sözügedən sığorta ilə bağlı müqavilələrin böyük əksəriyyəti birinci rübə yox, ikinci və sonrakı rüblərə düşür"*

***Xəyal Məmmədxanlı:*** *"Qeydə alınan azalma o demək deyil ki, könüllü sığorta ödənişləri..."*

Son 1 ildə icbari sığorta növləri hesabına daxilolmaların məbləği isə 97,5 faiz artaraq 71 milyon 227 min manat olub. Hesabat dövründə könüllü sığorta növlərində isə ödənişlərin məbləği 29 milyon 912 min manat təşkil edib ki, bu da illik müqayisədə 32,7 faiz azdır. İl ərzində icbari sığorta növləri üzrə ödənişlərin məbləği isə 2,9 faiz artaraq 16 milyon 322 min manata çatıb.

Beləliklə, 2019-ci ilin yanvar-mart aylarında könüllü sığorta bazarından toplanmış hər 100 manat sığorta haqqının 23 manatı qədər ödəniş edilib. Bu rəqəm 2018-ci ilin yanvar-mart aylarında 28,3 manat olub. Son 1 ildə icbari sığorta bazarında hər 100 manat sığorta haqqına düşən ödənişin məbləği isə 44 manatdan 22,9 manata düşüb.

Bundan əlavə, 2018-ci ilin 1-ci rübü ilə müqayisədə 2019-cu ilin 1-ci rübü ərzində Azərbaycanda fəaliyyət göstərən 22 sığorta şirkətindən 10-nun topladığı sığorta haqları artıb, 11-də isə azalıb. 1 sığorta şirkəti isə yeni lisenziya aldığından, ilk rübdə əməliyyat aparmayıb.

Onu da qeyd edək ki, bu ilin yanvar-mart aylarında Azərbaycandakı 21 sığorta şirkətinin xətti ilə 201,174 milyon manat məbləğində sığorta haqqı toplanıb. Bu isə ötən ilin eyni dövrü ilə müqayisədə 4,2 faiz çoxdur. Görünən odur ki, digər sığota növləri üzrə yığımlar artıb. Maraqlıdır, belə olan halda, niyə məhz ötən ilin eyni dövrü ilə müqayisədə bu ilin birinci rübündə könüllü sığorta yığımları 17 faizdən çox azalıb?

**Sözügedən məsələyə aydınlıq gətirən sığorta sahəsi üzrə ekspert Xəyal Məmmədxanlının sözlərinə görə, adətən birinci rübdə könüllü sığorta yığımları az olur:** "Bu səbəbdən birinci rübün göstəriciləri hər kəsi çaşdırır. Çünki birinci rübdə könüllü sığorta yığımlarının az olması, bir növ, ənənə halını alıb. Ümumi tendensiya isə onu göstərir ki, ilbəil könüllü sığorta yığımlarında artım var. Lap əvvəllər isə bu sahədə yığımların həcmi çox aşağı idi. Son bir neçə ildə bu sahədə müəyyən müsbət tendensiyalar müşahidə edilir. Məsələ ondadır ki, könüllü sığorta ilə bağlı müqavilələrin böyük əksəriyyəti birinci rübə yox, ikinci və sonrakı rüblərə düşür. Ona görə də birinci rübdə yığımla bağlı azalmalar diqqət çəkir. Ümumilikdə isə bu sahədə müsbət tendensiya var. Elə il olub ki, icbari sığorta yığımları az olub, amma könüllü sığorta yığımları çox olub. O baxımdan qeydə alınan azalma nisbidir. Hətta daha əvvəl istifadə olunmayan könüllü sığorta növlərində belə, müəyyən rəqəmlər ortaya çıxmağa başlayıb. Bir məqamı da qeyd edim ki, xüsusən böyük şirkətlərin könüllü sığorta müqavilələrinin əksəriyyəti düşür ikinci və sonrakı rüblərə. Söhbət böyük tibbi sığorta, böyük əmlak müqavilələrindən gedir. Ona görə də birinci rübdə qeydə alınan azalma o demək deyil ki, könüllü sığorta ödənişləri ilboyu az olacaq. Bunu ilin yekunlarına görə müqayisə etmək daha məqsədəuyğundur. Sevindirici hal ondan ibarətdir ki, əvvəlki illərə baxanda könüllü sığortaya maraq artıb.

Bu o deməkdir ki, insanlar artıq sığortanın əhəmiyyətini başa düşürlər, könüllü şəkildə öz əmlak maraqlarını qorumağa çalışırlar. Məsələn, kənd təsərrüfatı risqlərinin sığortalanmasında rəqəmlər artır. Həyat sığortalarının bəzi könüllü növlərində artım var. Bu o deməkdir ki, insanlar öz sağlamlıqlarına daha çox diqqət göstərirlər.

**Dünyada ən mühüm sığorta növlərindən biri də məsuliyyət sığortasıdır. İnsanlar başqasına qarşı öz məsuliyyətini dərk edir və bunu sığortalayırlar. Sığortanın bu növünə də Azərbaycanda maraq var".**

***Vidadi ORDAHALLI***

# Hesablama Palatasının alınmış səlahiyyəti - praktikada hansı ziyanlı təsirlər aradan qaldırıldı...

**Hesablama Palatasının bir sıra səlahiyyətləri ləğv edilir. Bununla bağlı "Hesablama Palatası haqqında" Qanuna dəyişikliklər edilir. Belə ki, "Hesablama Palatası haqqında" Qanunun 6.0.2. bəndinə təklif olunan dəyişikliyə görə, qurum büdcə qaydasına uyğun hesablanmış icmal büdcə xərclərinin yuxarı həddi və Vergi Məcəlləsində nəzərdə tutulmuş güzəşt və azadolmalar da daxil olmaqla, icmal büdcəsinin, o cümlədən, dövlət büdcəsi və büdcədənkənar dövlət fondlarının (təsisatlarının) büdcələrinin layihələrinə və icrasına dair rəy verəcək.**



*"Nəzarət edən qurum adətən inzibati xətalara baxdıqda, öz maraqlarına uyğun olaraq qərar qəbul edir"*

***Vamiq Şükürov:*** *"Verilən qərar sahibkarlıq fəaliyyəti ilə məşğul olan subyektlərin maraqlarına uyğundur"*

Buna qədər isə Hesablama Palatası büdcə qaydasına uyğun hesablanmış icmal büdcə xərclərinin yuxarı həddi də daxil olmaqla, icmal büdcəsinin, o cümlədən, dövlət büdcəsi və büdcədənkənar dövlət fondlarının (təsisatlarının) büdcələrinin layihələrinə və icrasına dair rəy verib.

Ən başlıcası isə, təklif olunan digər dəyişikliyə görə, Hesablama Palatasının inzibati xətalar haqqında işlərə baxması və inzibati tənbeh tətbiq etməsi səlahiyyətləri ləğv edilir. Hazırda Palatanın qanunla nəzərdə tutulmuş müvafiq inzibati xətalar haqqında işlərə baxma və inzibati tənbeh tətbiqetmə hüququ var. Yeni dəyişikliklərdə isə bu hüquq ləğv edilir. Bu o deməkdir ki, artıq qurumun sözügedən məsələ ilə bağlı səlahiyyəti olmayacaq.

Maraqlıdır, Palatanın inzibati xətalar haqqında işlərə baxması və inzibati tənbeh tətbiq etməsi səlahiyyətlərinə malik olması hansı mənfi fəsadlar yaradıb? Sözügedən səlahiyyətin bu qurumun əlindən alınmasının əhəmiyyətini ekspertlər necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən hüquqşünas Vamiq Şükürov buna bir neçə kontekstdən yanaşdı. Onun fikrincə, verilən qərar sahibkarlıq fəaliyyəti ilə məşğul olan subyektlərin maraqlarına uyğundur:** "Palata o inzibati xətalara baxırdı ki, xarici ünsürlü müqavilələr üzrə ölkədən xaricə göndərilmiş pul vəsaitləri 270 gün müddətində geri qaytarılmırdısa və yaxud da ondan gec müddətə qaytarılırdısa, qurum bu inzibati xətaya baxırdı. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi şəxslərin inzibati məsuliyyətə cəlb olunması işini məhkəmələrə göndərirdi. Məhkəmələrdə bu, sübut olunandan sonra isə sahibkarlıq subyektlərinə cərimələr yazılırdı. Hesablama Palatası əsasən bu işlərə baxırdı. Hüquqşünas olaraq dəfələrlə bunun şahidi olmuşam. Nəzərə almaq lazımdır ki, Palata maliyyə bazarlarına, sığorta şirkətlərinə nəzarət edən bir qurumdur. Görünür, bununla bağlı müvafiq işlərin öhdəsindən Palata yaxşı gələ bilməyib. Bir məqamı da nəzərə almaq lazımdır ki, nəzarət edən qurum adətən inzibati xətalara baxdıqda, öz maraqlarına uyğun olaraq qərar qəbul edir. Çünki nəzarət edən qurum çalışır ki, öz maraqlarına uyğun olaraq, bəzən qanunsuz olsa da, nəzarət etdiyi subyektlərə inzibati tənbeh tətbiq etsin. Daha dəqiq desək, bunda maraqlı olur. Ona görə də hesab edirəm ki, bu səbəbdən səlahiyyətlər Palatadan alınıb".

***Vidadi ORDAHALLI***

**Bugün Azərbaycanda müxtəlif su filtrləri satan şirkətlər peyda olub. Həmin şirkətlərin nümayəndələri ev-ev, qapı-qapı gəzərək işlədikləri şirkətlərin məhsulunu satmaq istəyirlər. Əlbəttə, hər bir şirkətin öz məhsullarını satması təbiidir. Ancaq onlar öz məhsullarını, su təmizləyicilərini, filtrləri əhaliyə aldırmaq üçün düzgün üsul seçmirlər.**

# Filtr satan şirkətlər bir-iki manat qazanca görə Azərbaycan dövlətinin təmiz su siyasətini vurmaqda davam edir...



***Anar Cəbrayıllı:** "Bu şirkətlər gündəlik strateji məhsul olan içməli suyun keyfiyyəti haqqında yalan, iftiralar dolu məlumatlar yayır, öz məhsullarını satmaq məqsədilə əhaliyə verdiyimiz içməli suyun keyfiyyəti haqqında həqiqətə uyğun olmayan fikirlər səsləndirirlər"*

Maraqlıdır ki, bu şirkətlər öz məhsullarını təqdim edərkən ölkənin içməli su təminatını şübhə altına alan fikirlər səsləndirirlər. Onlar heç bir fakta əsaslanmadan bildirirlər ki, əhaliyə verilən içməli su ekoloji cəhətdən təmiz deyil və insanlarda bir sıra xəstəliklərin yaranmasına səbəb olur.

Su filtri satan şirkətlərin əməkdaşları iddia edirlər ki, guya bizdə içmək və çimmək üçün istifadə edilən su dizenteriya, qarın yatalağı, eləcə də başqa xəstəliklər yayır. Onların iddialarına görə, Azərbaycanda əhaliyə verilən içməli suyun tərkibi standartlara uyğun deyil. Sirr deyil ki, bu da əhalidə ciddi narahatlıq yaradır və onlara belə gəlir ki, suyun keyfiyyəti standartlara uyğun deyil, bu səbəbdən də filtr satan şirkətlərin toruna düşürlər. Əhalinin narahatlığından sui-istifadə edən şirkətlər onlara öz məhsullarını ya nağd, ya da kredit yolu ilə satmağa nail olurlar. Hətta elə sakinlər var ki, onlar nəinki içməli su kranına, eləcə də hamamxanaya həmin şirkətlərin satdıqları filtrləri qoyublar. Su filtrinin qiyməti isə olduqca bahadır. Bəzi müştərilərin verdiyi bilgiyə görə, filtr 1200 manata satılır.

Ölkədə fəaliyyət göstərən su filtri satan şirkətlər bu davranışları və təbliğatları ilə dövlətin içməli su təminatı siyasətinə kölgə salırlar.

Məlum olduğu kimi, əhalinin ekoloji cəhətdən içməli su ilə təmin olunması dövlətin əsas hədəflərindən biridir. Dövlətimiz bütün mövcud su təmizləyici cihazlardan istifadə edərək əhalinin içməli su təminatını həyata keçirir.

**"Azərsu" ASC-nin mətbuat katibi Anar Cəbrayıllı "Bakı-Xəbər"ə bildirdi ki, həm regionlarda, həm də Bakı şəhərində əhaliyə verilən içməli suyun keyfiyyəti standartlara tam uyğundur.**

"Biz dəfələrlə su filtri satan şirkətlərlə bağlı mətbuatda məlumatlar vermişik. Bu şirkətlər gündəlik strateji məhsul olan içməli suyun keyfiyyəti haqqında yalan, iftiralar dolu məlumatlar yayır, öz məhsullarını satmaq məqsədilə əhaliyə verdiyimiz içməli suyun keyfiyyəti haqqında həqiqətə uyğun olmayan fikirlər səsləndirirlər. Əllərinə iki dənə qondarma cihaz götürüb qapı-qapı gəzirlər. Onlardan biri elektro cihazdır, onu aparıb bizim krant, şəbəkə suyumuzu götürürlər, orada kimyəvi proseslər gedir, duzlar, minerallar həll olunur, bu da suyun üzündə çöküntü yaradır. Onlar da bu çöküntünü camaata göstərib deyirlər ki, suyun içində palçıq, lil var. Bununla da həmin şirkətlər camaatı aldadırlar. Əsas məqsədləri də odur ki, fırıldaq yolu ilə öz məhsullarını satsınlar" - deyə A.Cəbrayıllı bildirdi.

O, həmçinin, vurğuladı ki, abonentlərə keyfiyyətsiz su verilmir və təmsil etdiyi qurum əhalinin içməli su ilə təmin olunmasını həyata keçirir: "Biz istəmərik ki, abonentlərimizə keyfiyyətsiz su verək və vermirik də. Su müvafiq mənbələrdən götürülür, anbarlara vurulur və evlərə vurulana qədər də mütəmadi yoxlanılır. Bizim laboratoriyalarda il ərzində ən az 16 min su nümunəsi yoxlanılır. Biz bu məsələni daim nəzarətdə saxlayırıq. Bundan başqa, ölkədə suyun keyfiyyətinə Səhiyyə Nazirliyinin Gigiyena və Epidemiologiya Mərkəzi nəzarət edir. Yəni biz əhaliyə pis su verməyə çalışsaq belə, sözügedən qurum həmin suyun verilməsinin qarşısını alacaq" - deyə A.Cəbrayıllı bildirdi.

**O, həmçinin, vurğuladı ki, evlərə verilən suyun keyfiyyəti ilə bağlı heç bir problem yoxdur. "Sadəcə, filtr satan işbazlar bizim suyumuzu pisləməklə, öz işlərini görməyə çalışırlar" - deyə A.Cəbrayıllı qeyd etdi.**

*İradə SARIYEVA*

# Türkiyə və Rusiyada işləyən soydaşlarımızın gəlirləri azalıb...



***Fuad İbrahimli:** "...gəlirin azalması, təbii ki, onların doğmalarına göndərdiyi pulun həcminə də təsir göstərir"*

**Məlumatlara görə, Azərbaycana xaricdən pul köçürmələri 26% azalıb. Bu ilin I rübündə Azərbaycana xaricdən 215 milyon ABŞ dolları məbləğində pul baratları daxil olub.**

Mərkəzi Bankın yaydığı statistik rəqəmlərdə qeyd olunur ki, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 26,3% azdır.

Ekspertlər bildirirlər ki, xaricdən Azərbaycana pul köçürmələri son illər azalır. Onlar bunun səbəbini müxtəlif cür izah edirlər.

**İqtisadçı-ekspert Fuad İbrahimli bildirdi ki, xaricdən Azərbaycana pul köçürmələrinin azalmasının bir neçə səbəbi var:** "Əsasən Rusiyadan ölkəmizə pul köçürmələri qeydə alınır. Danılmaz faktdır ki, ölkə əhalisinin müəyyən hissəsi işləmək üçün Rusiyaya gedib. Rusiyada yaşayanların bir qismi artıq oranın vətəndaşlığını alıb. Rusiyada yaşayan soydaşlarımız mütəmadi olaraq ailələrinə pul göndərirlər. Novruz bayramından sonra Rusiyada yaşayan soydaşlarımızın bəziləri doğma vətənə geri qayıtdılar".

**Həmsöhbətimiz onu da vurğuladı ki, Rusiya ilə yanaşı, Azərbaycana pul köçürmələri Türkiyədən də həyata keçirilir: "Rusiya ilə bərabər, Türkiyədə yaşayanların da gəliri azalıb. Gəlirin azalması, təbii ki, onların doğmalarına göndərdiyi pulun həcminə də təsir göstərir. Son zamanlar Rusiyada yaşayan soydaşlarımız gəlirin azalmasını bildirirlər. Təbii ki, gəlirin azalması onların xərclərinə də təsir edir".**

Ekspertin sözlərinə görə, dolların məzənnəsinin manata nisbətən dəyişkən olması xaricdə yaşayanların da qazancına təsir göstərir.

*Günel CƏLİLOVA*

# BŞTİ şagirdin özünü binadan aşağı atması ilə bağlı araşdırma barədə açıqlama yaydı

**Bakıda özünü 273 nömrəli tam orta məktəbin ikinci mərtəbəsindən atan oğlan bunu dərsdən qaçmaq məqsədilə edib.**

Məktəbdən "Trend"ə verilən məlumata görə, mayın 13-də tənəffüs zamanı - saat təxminən 11:20 radələrində məktəbin VIII sinif şagirdi (müvafiq səbəblərdən şagirdin adı qeyd olunmur) dərsdən qaçmaq məqsədilə II mərtəbədəki sinif otağının pəncərəsindən əvvəlcə çantasını, sonra özünü aşağı atıb.

O, bədəninin müxtəlif nahiyələrindən zədələr alıb: "Dərhal təcili tibbi yardım çağırılıb, şagirdin valideynlərinə xəbər verilib. Hazırda uşaq 1 saylı Şəhər Klinik Xəstəxanasına yerləşdirilib".

Bakı Şəhəri üzrə Təhsil İdarəsindən (BŞTİ) agentliyə verilən məlumata görə, hadisə ilə bağlı İdarə tərəfindən xidməti araşdırma aparılır.

**Araşdırmanın nəticələri barədə əlavə məlumat veriləcək: "Qeyd edək ki, təhsil müəssisələrində uşaqların təhlükəsizliyinin təmin olunması daim diqqət mərkəzində saxlanır və bu kimi hallara qarşı ciddi tədbirlər görülür".**

"Avtomobillərdə reklam xarakterli informasiyanın yerləşdirilməsi qanunla ciddi tənzim olunur və bu qaydaları pozanlar cərimələnir. Avtomobil üzərində istənilən reklam xarakterli təsvirlər qanunla qadağan edilib".

# Avtomobillərin şüşələrindəki "satılır" elanında qanunsuzluq?...




*Kamran Əliyev: "Satılır" sözünə görə heç bir sürücü cərimə olunmur"*

*Ərşad Hüseynov: "...qadağa hüquqi və fiziki şəxslərin kommersiya fəaliyyəti ilə bağlı olmayan elanlarına şamil edilmir"*

Bu barədə "Sputnik Azərbaycan"a Baş Dövlət Yol Polisi İdarəsinin şöbə rəisi Kamran Əliyev deyib. Onun sözlərinə görə, reklam xarakterli informasiya olan təsvirlər üçün lazım olan sertifikatı almaq lazımdır.

O qeyd edib ki, avtomobilin şüşəsində "satılır" yazısı yapışdırmaq da reklamdır. Avtomobilin hansı şirkətə məxsus olduğunu bildirən ad və ya loqotip reklam hesab edilmir: "Bütün deyilənlər yeni qanunvericilikdə öz əksini tapıb. "Nəqliyyat vasitələrində reklam yerləşdirilməsi" qaydalarının pozulmasına görə fiziki şəxslər üçün 50 manata qədər, vəzifəli şəxslər üçün 150-200 manat, hüquqi şəxslər üçün isə 500-2000 manat cərimə müəyyən edilib".

Avtomobilin üzərində "satılır" sözünün yazılmasına görə cərimə tətbiq olunmasını ekspertlər, eyni zamanda, ölkə ictimaiyyəti də birmənalı qarşılamır. Maşın sürücünün şəxsi əmlakıdır, o öz əmlakının üzərində "satılır" sözünü yazmaqda sərbəstdir.

Baş Dövlət Yol Polisi İdarəsi (BDYPİ) maşınların üzərində "satılır" sözü yazanların cərimə edilməsi ilə bağlı yayılan xəbərlərə münasibət bildirib. **İdarənin Yol Patrul Xidmətinin (YPX) şöbə rəisi, polis polkovniki Kamran Əliyev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, reklam məsələləri "Reklam haqqında" Qanunla tənzimlənir:** "Satılır" sözünə görə heç bir sürücü cərimə olunmur. Ümumiyyətlə, avtomobillərin üzərində olan və onun hansı şirkətə, hansı quruma məxsus olduğunu bildirən adlar, loqolar reklam sayılmır. Yalnız hansısa məhsul avtomobilin üzərində qanunsuz reklam olunarsa, buna görə sürücü cərimə oluna bilər".

K.Əliyev onu da vurğuladı ki, o, belə bir açıqlama verməyib: "Ötən gün mətbuatda mənim adımdan avtomobillərin üzərində "satılır" sözü yazanlara cərimə tətbiq ediləcəyi ilə bağlı məlumat yayılsa da, mən son bir il ərzində heç bir media qurumuna belə açıqlama verməmişəm. Ola bilər ki, 3-4 il əvvəl avtomobillərin üzərinə "satılır" sözü yazıb və piyada səkilərində uzun müddət saxlayan, piyadaların hərəkətinə maneə olan sürücülərlə bağlı verdiyim açıqlamadan istifadə ediblər. Həmin vaxt mən maşınların səkidə saxlanmasına görə cərimələnməsi haqda danışmışam. Avtomobillərin üzərində olan və onun hansı şirkətə məxsus olduğunu bildirən loqotiplər reklam sayılmır. Yalnız hansısa məhsul avtomobilin üzərində qanunsuz reklam olunduqda sürücü cərimə oluna bilər".

**Yol hərəkəti üzrə ekspert Ərşad Hüseynov bizimlə söhbətində bildirdi ki, sürücü "satılır" sözünə görə cərimə oluna bilməz:** "Belə məlumatlar yayılır ki, guya maşının üzərinə "satılır" sözü yazılarsa, sürücü 2000 manat dəyərində cərimələnəcək. Bu düzgün söhbət deyil".

Ekspertin sözlərinə görə, "Reklam haqqında" Qanunun 1.2-ci maddəsinə əsasən, qadağa hüquqi və fiziki şəxslərin kommersiya fəaliyyəti ilə bağlı olmayan elanlarına şamil edilmir: "Ona görə də öz avtomobilinə bu tip elan yazmaq qanunla tənzimlənmir, bunun üçün icazə lazım deyil, icazə yoxdur deyə, cərimədən söhbət gedə bilməz".

*Günel CƏLİLOVA*

Humanizm, sülh, mərhəmət, bərəkət ayı olan Ramazanın ilk günlərini yaşayırıq. Bu gün ölkəmizdə bir çox insan bu müqəddəs ayda oruc tutur. Bu olduqca normaldır və sağlamlıq imkanları yol verirsə, insanların oruc tutması vacib əməldir. Böyüklərlə yanaşı, uşaqların, yetkinlik yaşına çatmayanların da oruc tutduğunun şahidi oluruq.

# Ailələrdə kiçik uşaqların oruca məcbur edildiyi barədə həyəcanlı məlumatlar yayılır



*Vaqif Qarayev: "Uşaqların oruc tutması tibbi cəhətdən düzgün deyil"*

*İsmayıl Əhməd: "Azyaşlı uşaqları oruc tutmağa məcbur etmək olmaz, məcburiyyət varsa, bu düzgün deyil"*

Təəssüf ki, uşaqların böyük əksəriyyəti bunu könüllü şəkildə etmir. Yəni onların valideynləri oruc tutduqları üçün övladlarını da oruc tutmağa vadar edirlər.

Hazırda ölkəmizdə 7, 8, 9, 10, 11, 12 yaşlı uşaqların oruc tutması kimi hallar geniş yayılıb. Bu gün orta məktəblərin ibtidai siniflərində oxuyan şagirdlərin, demək olar ki, müəyyən bir qismi oruc tutur və sinif yoldaşlarına da oruc tutmağı tövsiyə edir. Maraqlı tərəf odur ki, uşaqlar oruc tutmaq vərdişlərinə valideynlərin tələbi ilə yiyələnirlər. Oruc tutan şagirdlər oruc tutmayan şagirdlərə deyirlər ki, oruc tutmasan, sən "cəhənnəmə düşəcəksən, ata-anana pis nə isə olacaq". Bu da oruc tutmayan uşaqlarda şübhə yaradır. Bəzi valideynlər uşaqlarını müəyyən qorxulu nümunələr çəkməklə oruca cəlb edirlər. Orucun mahiyyətini anlamayan, dinimizin tələblərindən xəbərsiz olan azyaşlılar isə valideynlərinin sözləri ilə oruc tuturlar. Uşaqların kütləvi olaraq valideynləri tərəfindən zorən oruc tutmağa cəlb edilməsi mütəxəssislər tərəfindən müsbət qəbul edilmir. Onlar hesab edirlər ki, ümumiyyətlə, bəzi valideynlər özlərini dinin bütün tələb və qaydalarına əməl edirmiş kimi göstərmək üçün həm erkən yaşlarından qız uşaqlarının başına hicab bağlayır, həm də övladlarını məcburi qaydada oruc tutmağa cəlb edirlər.

**Tanınmış pediatr Vaqif Qarayev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, uşaqların ac-susuz qalması olduqca mənfi bir haldır və valideynlər bundan əl çəkməlidirlər.** V.Qarayevin sözlərinə görə, böyüməkdə olan orqanizm mütəmadi olaraq qidalanmalıdır. Erkən yaşdan oruc tutmanın uşaqların sağlamlığı üçün əngəl yaratdığını deyən V.Qarayevin sözlərinə görə, bu şəkildə ac qalmaq uşaqların yaddaşına, zehninin zəifləməsinə ciddi təsir göstərir. "Uşaqların oruc tutması tibbi cəhətdən düzgün deyil. Mən hər dəfə bu barədə danışanda insanların ciddi tənqidi ilə üzləşirəm. Mən bu məsələyə bir həkim kimi yanaşıram və tibbin qanunudur ki, böyüyən orqanizm normal qidalanmalıdır. Böyüyən orqanizmə gündəlik zülal, yağ, karbohidrat, vitaminlər, minerallar mütləq daxil olmalıdır. O mənada, uşaqlarımızı niyə ac qoymalıyıq ki? Bəzi valdeynlər deyirlər ki, biz məcbur etmirik, uşaqlar özləri oruc tutmaq istəyirlər. Bu fikri qətiyyən qəbul etmirəm. Uşağın özü çox şey istəyir, buna yol verməmək olmaz. Uşağın ac və susuz qalması yolverilməzdir. Xüsusən də isti aylarda uşaqların susuz saxlanması məqbul deyil. Maddələr mübadiləsində kifayət qədər əhəmiyyəti var. Onda biz uşaqlarımızın orqanizmini niyə qurutmalıyıq? Mən uşaqların oruc tutmasının tibbi cəhətdən onlara verdiyi zərərdən danışıram, bununla dinin əleyhinə getmirəm. Uşaq gün boyu ac qalır və axşam da ağır yeməklərlə mədəsini doldurur, bu da sözsüz ki, onun səhhətində ciddi problem yaradır" - deyə bildirən V.Qarayev hesab edir ki, uşaqların sağlam böyüməsi üçün onların orqanizmi normal qidalanmalıdır.

**Dinşünas İsmayıl Əhməd isə cəmiyyətimizdə artıq vüsət alan bu məsələyə şəriət baxımından yanaşdı.** O hesab edir ki, uşaqların oruc tutması dini baxımdan məqbul deyil: "Bu kimi hallar bəzi ailələrdə müşahidə olunur. Ümumiyyətlə, azyaşlı uşaqları oruc tutmağa məcbur etmək olmaz, məcburiyyət varsa, bu düzgün deyil. Yetkinlik yaşına çatmayana qədər uşaqların oruc tutması vacib deyil. Yetkinlik yaşına çatmayan uşaqların oruc tutmasını Allah vacib buyurmursa, valideyn heç cür uşağını buna məcbur edə bilməz. Uşaq yetkinlik yaşına çatdıqdan sonra isə valideyn ən yaxşı halda övladına oruc tutmağı təklif edə bilər, məcbur edə bilməz. Çünki dinimizdə məcburiyyət yoxdur. Yeniyetmələrə orucun mahiyyəti başa salına bilər və onların da fiziki durumu ona imkan verirsə, oruc tuta bilərlər, cavab vermirsə, yox".

*İradə SARIYEVA*

Bakı və onun ətraf qəsəbələrində son bir neçə ildə xeyli iş görülüb. Belə ki, 7 il əvvəl "Bakıətrafı qəsəbələrin sosial-iqtisadi inkişafı proqramı" qəbul edildi. Sözügedən proqram çərçivəsində bir sıra işlər görüldü. Bakının ətrafında yerləşən qəsəbə və kəndlərə yeni qaz, rabitə, su-kanalizasiya, elektrik xətləri çəkildi.

# Bakının "beş addımlığında" unudulmuş yaşayış massivi, su da yoxdur - Atçılıq...



*”Quyu suları duzlu olduğundan, kombilər tez sıradan çıxır”*

***Ələkbər Nəbiyev:** ”Yaşadığımız ərazidə su xətti yoxdur və bu səbəbdən içməli suyu pulla alırıq”*

Ancaq müşahidələr göstərir ki, bu yöndə görülən tədbirlər bütün yeni salınan yaşayış massivlərini əhatə etmir. Xüsusən də yeni salınan yaşayış massivlərində əhalinin su təchizatında problemlər var. Belə yaşayış massivlərindən biri də Binə Atçılıq sovxozudur. Adıçəkilən ərazidə yaşayan sakinlər illərdir üzləşdikləri su problemindən yaxa qurtara bilmirlər. Sakinlərin dediyinə görə, Binə qəsəbəsinin Atçılıq sovxozu adlanan massivində 10 minə yaxın əhali yaşayır. Burada məskunlaşan sakinlərin böyük əksəriyyəti rayonlardan gəlib muzdla çalışan fəhlələrdir. Bir vaxtlar sözügedən ərazidə torpağın qiyməti nisbətən ucuz olduğundan, orada yer alıb ev tikiblər. Burada hər addım başı yeni evlər tikilsə də, sanitar xətlər, su boruları yoxdur. Bundan fərqli olaraq, qaz və elektrik xətləri çəkilib. Yol isə torpaq olduğundan, sakinlər qış aylarında çox böyük çətinliklərlə üzləşirlər. Qışda palçıq olduğundan, buradan keçmək qeyri-mümkün olur. Sakinlər deyirlər ki, torpaq sarı olduğundan, ayağa yapışan palçıq qopmur. Üstəlik, xeyli sayda küçə olsa da, bunların da heç birinin adı yoxdur. Burada zibil qabları qoyulmadığı üçün, əhali məişət tullantılarını elə yolun kənarına tökür. Nəticədə isə böyük bir ərazi çirklənmiş vəziyyətdədir.

**Atçılıq sovxozunda yaşayan Ələkbər Nəbiyev qəzetimizə etdiyi şikayətində bildirdi ki, onları ən çox narahat edən məsələ ərazidə su təminatının olmamasıdır:** "On beş ildən çoxdur burada yaşayıram. Hər cür çətinlik gördük. İlk illərdə elektrik təminatı pis vəziyyətdə idi. İllər sonra xətlər yeniləndi. Daha sonra yeni qaz xətləri çəkildi. Qaz xətti çəkilsə də, qışda qazın təzyiqi aşağı olur. Ancaq bizim ən başlıca problemimiz su təminatı ilə əlaqədardır. Yaşadığımız ərazidə su xətti yoxdur və bu səbəbdən içməli suyu pulla alırıq. Bu da baha başa gəlir. İnsan sağlamlığı üçün ən təhlükəli olan problem qəsəbənin su və kanalizasiya sisteminin olmamasıdır. Su problemini hər kəs öz imkanına görə həll edir. İmkanı olan hər ay 40 manat ödəməklə su maşınları ilə çəninə su vurdurur. İmkanı olmayan isə həyətində quyu qazdırıb yerdən çıxan qrunt sularından, duzlu sudan istifadə etmək məcburiyyətində qalır. Qəsəbənin əksər sakinləri ailəsini günəmuzd işləməklə dolandıran fəhlələr olduğundan, su almağa hər dəfə imkanı olmur. Xüsusən də yay fəslində suya tələbat yüksək olur. Həyətlərdə qazılan quyularda çıxan su duzlu olduğundan, heç ağacları belə, suvarmağa yararlı olmur. Həmin su ilə çimmək problemlidir. Quyu suyu duzlu olduğu üçün çimməndə bədən qaşınır. Digər tərəfdən, quyu suları duzlu olduğundan, kombilər tez sıradan çıxır. Burada yaşayan sakinlər dəfələrlə bu problemlə üzləşiblər. Burada yaşıllıqlar çox azdır. Ona görə azdır ki, şirin su problemi var. Su çəkilsə, yaşıllıqların da sayı çox olar. Əfsuslar olsun ki, bu problem hələ də öz həllini tapmayıb. Dəfələrlə su xəttinin olmaması ilə bağlı müvafiq qurumlara müraciət etmişik. Eyni zamanda, susuzluğun yaratdığı problemləri media vasitəsilə ictimailəşdirmişik. Ancaq təəssüflər olsun ki, hələ də səsimizə səs verən olmayıb. Bütün bunlara baxmayaraq, heç bir irəliləyiş yoxdur. Binə qəsəbəsinin havası quru olduğundan, yayı çox isti keçir. Suya tələbat xeyli artır. O üzdən, çox istərdik ki, bu əraziyə su çəkilsin və əhali bu zülmdən xilas olsun".

Atçılıq sovxozunda su probleminə "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin münasibətini öyrənmək istəsək də, qurumla əlaqə yaratmaq mümkün olmadı.

***Vidadi ORDAHALLI***

Bəzi yerli televiziyalarda peşəkar rəqs ifaçılarına, demək olar ki, yer verilmir. Bu gün milli rəqslərimizin efirlərdə klassik formada təqdimatı sahəsində ciddi probelmlər var. Son zamanlar müxtəlif şou proqramlarına əsasən peşəkarlar deyil, qeyri-peşəkar rəqqas və rəqqasələr dəvət edilir, onların da xeyli bir qismi toy rəqqas və rəqqasələridir.

# İlan və digər heyvanlarla rəqs edən yeni rəqqaslar - peşəkar rəqsə aidiyyəti olmayan elementlər tüğyan edir...



*”İlanla rəqs etmək nədir?”*

***Aliyə Ramazanova:** ”Milli, klassik rəqslərimizin müxtəlif şəkillərdə təhrif edilməsi halları ilə barışmaq mümkün deyil”*

Onlar toylarda rəqslərimizi təhrif etdikləri bəs etmir, hələ çıxıb milyonların qarşısında da rəqslərimizi biabırçı şəkildə təqdim edirlər.

Qeyri-peşəkarlar müxtəlif toylarda, şou-proqramlarda, əyləncə məkanlarında çıxardıqları oyunları efirlərdə təkrar edirlər. İndi efirə çıxanların xeyli bir hissəsi rəqs nömrələri təqdim edərkən ilandan istifadə edir, ilanla rəqs nömrələri göstərirlər. Sanki bunlar rəqqas deyil, sirk oyunçularıdırlar. İlanı boynuna dolayıb atılıb-düşürlər. İlanı boynuna dolayıb oriental oynayan rəqqasələr də çoxalıb. Ümumiyyətlə, ilanla rəqs forması var, bu, xüsusən də Şərq rəqs məktəbində geniş yayılıb. Ancaq ilanla rəqs etmək xüsusi peşəkarlıq tələb edir. İlanla konkret rəqs göstərmək əvəzinə, rəqsləri təhrif edərək onu şou-ya çevirirlər. Efirlərdə tez-tez rast gəlinən bu kimi hallar ustad rəqqaslar tərəfindən ciddi tənqid edilir. Onlar hesab edirlər ki, efirlərə peşəkarlar deyil, daha çox qeyri-peşəkarlar dəvət edilir. Rəqslərimizin təqdimatında ciddi problemlər olduğunu qeyd edən ustad sənətkarların fikrincə, onların məqsədi rəqslərimizi tanıtmaq yox, şou göstərməklə toylara, məclislərə dəvət almaqdır.

**Respublikanın Əməkdar artisti, tanınmış rəqs ustası Aliyə Ramazanova "Bakı-Xəbər"ə bildirdi ki, bu gün bəzi televiziyalar o adamlara meydan verməklə rəqs sənətinə ciddi zərbə vururlar.** "Bir də görürsən ki, televiziyaya elə adamlar çıxarırlar ki, onların bizim rəqslərdən xəbərləri yoxdur. Bu gün müəyyən insanlar var

*”Hazırda fəaliyyət göstərən rəqs müəllimləri bizim rəqslərimizi təhrif edirlər, çox dolaşdırırlar”*

ki, özlərini rəqqas, rəqqasə kimi təqdim edərək efirlərdə oyunlar çıxarırlar. İlanla rəqs etmək nədir? Sən çıx sənət göstər. Rəqslə bağlı bəzi telekanallarda gedən verilişlər, orada ifa edənlər mənim xoşuma gəlmir. Rəqs qalır kənarda, bəzi gənclər tamamilə başqa şeylər göstərirlər, bu kimi hallarin qarşısı alınmalıdır. Bizim əsrlərin sınağından çıxıb bu günə qədər gəlib çıxan gözəl rəqslərimiz var, onları yaşatmaq, təbliğ etmək lazımdır. Biz sənətkarlar yaşa doluruq, bizim yerimizi istedadlı gənclər tutmalıdırlar. Bu gün bizim ustad sənətkarların çoxu bir tərəfə çəkiliblər deyə, bəziləri meydana çıxıb. Biz o ənənələri qoruyub indiyə qədər gətirib çıxarmışıq, bəzi rəqs müəllimləri isə bu ənənələri itirirlər. Hazırda işləyən, fəaliyyət göstərən rəqs müəllimləri bizim rəqslərimizi təhrif edirlər, çox dolaşdırırlar. Efirə çıxanlar da onların tələbələridir".

A.Ramazanova qeyd etdi ki, Azərbaycan rəqslərinin yaşadılması üçün böyük sənətkarlar çox məşəqqətli, çətin yollar keçiblər, lakin rəqslərimizi itib-batmağa qoymayıblar. "Bizim dövrümüzdəki kimi, rəqslərdə milli kolorit yoxdur. Çox arzu edərdim ki, gənclər rəqslərimizin milli koloritini qorusunlar. Efirdə görünmək, toya getmək, qazanc əldə etmək naminə rəqslərimizi təhrif etməsinlər. Toyun toy, şənliyin şənlik, efirin də efir rəqsi var. Milli, klassik rəqslərimizi müxtəlif şəkillərdə təhrif edilməsi halları ilə barışmaq mümkün deyil. Rəqslər xalqın sərvətidir, hər kəs bu sərvəti qorumalıdır" - deyə A.Ramazanova qeyd etdi.

***İradə SARIYEVA***

# Ucqar xəstəxanalarda it, ilan, əqrəb dişləməsi əleyhinə vaksin problemi...

**Son zamanlar ölkəmizdə tez-tez küçə heyvanlarının vətəndaşlara hücum etməsi xəbərlərinə rast gəlirik. Bu hal bölgələrdə də müşahidə olunur. Deməli olar ki, tez-tez itqapmalar, əqrəb və ilan sancmalarla bağlı məlumatlar yayılır. Havaların isinməsi ilə əlaqədar ilan və əqrəb sancması halları xüsusilə artır.**

Məlumdur ki, ilan və əqrəblər əsasən insanların çox sıx yerləşdiyi ərazilərə toplaşırlar. Bu tip hallar daha çox bölgələrdə qeydə alınır.

Ekspertlər bildirirlər ki, sahibsiz küçə heyvanları daha çox yoldan keçən uşaqlara hücum edirlər. Açıqlanan statistik rəqəmlərdə də qeyd olunur ki, son zamanlar it qapmaları, ilan və əqrəb sancmaları artıb. Belə ki, Kliniki Tibbi Mərkəzinin yaydığı məlumatda qeyd olunur ki, ilan sancması diaqnozu ilə 6, əqrəb sancması ilə 3 xəstə gətirilib. Qeyd edək ki, müraciətlər əsasən Bakıətrafı kənd və qəsəbələrdən, eləcə də Aran bölgəsindəndir.

Ekspertlər bildirirlər ki, əqrəb sancmaları ilan sancması qədər təhlükəlidir. Xüsusilə qara əqrəbin zəhəri daha kəskin olur. Aparılan araşdırmalar zamanı məlum olub ki, hər il apreldən oktyabradək 100-dən çox ilan, 20-30 sarı və qara əqrəb sancması qeydə alınır.

Məlumat üçün bildirək ki, Azərbaycanda ən yayılan ilan növləri gürzə, sarı rəngli dağ su ilanı, boz rəngli su ilanıdır. Gürzə Bakı və ətraf kəndlər, Xəzərətrafı zonalarda xüsusilə geniş yayılıb.

Onu da bildirək ki, bölgə əhalisi ilan və əqrəb sancması təhlükəsi ilə yanaşı, eyni zamanda, yırtıcı meşə heyvanlarının hücumuna da məruz qalır. Sahibsiz it, çaqqal və canavarlar vətəndaşlara hücum edirlər.

Qeyd etdiyimiz kimi, bu tip hadisələr paytaxt Bakı ilə müqayisədə daha çox bölgələrdə qeydə alınır.

İt qapma, ilan və əqrəb sancması ilə üzləşən şəxsin sağalması üçün ona vaksin və zərdab vurulur. Qeyd etdiyimiz dərman ilkin olaraq xəstəyə vurulur, daha sonra həmin şəxs həkim nəzarətinə götürülür.

Yayılan məlumatlara görə, bölgə xəstəxanalarında vaksin problemi yaşanır. Belə bir problem bu günlərdə Ucar Mərkəzi Rayon Xəstəxanasında qeydə alınıb. İt hücumuna məruz qalan şəkər xəstəsi Telman Xudaverdi oğlu İbrahimov təcili xəstəxanaya gedib. Xəstəxananın cərrahiyyə şöbəsinin həkimi Zahir Salahov T.İbrahimova xəstəxanada vaksinin olmadığını deyib.

Bu fakt bölgə xəstəxanalarının vaksin və zərdab təminatını gündəmə gətirdi. Xüsusən də ucqar rayon xəstəxanalarında vaksinin olmadığı ehtimal olunur.

Maraqlıdır, ucqar rayon xəstəxanalarının vaksin və zərdab təminatı hansı səviyyədədir?

**Səhiyyə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Pərviz Abubəkirov bildirdi ki, bu il təkcə ilan sancmaları deyil, həmçinin, it dişləməsi halları da çox olub:** "Bununla bağlı zərdab tədarükü görülüb. Səhiyyə Nazirliyinin İnnovasiya və Təchizat Mərkəzi var. Bu peyvəndlər dünyada iki ölkədə buraxılır. Bunlardan biri Fransa, digəri isə Özbəkistandır. Onlar hamısı alınıb, sayı kifayət qədərdir. Bu il it dişləmələrinin sayı çox olduğu üçün, dərhal yerindəcə yardım edilməsi məqsədilə təcili tibbi yardım avtomobillərinə də bu zərdab paylanıb. Zərdabların paylanmasına gəlincə, biz coğrafi şəraiti nəzərə alaraq paylayırıq. İnnovasiya mərkəzlərində sorğu keçirilir ki, ötən il hansı rayonda neçə it dişləməsi və ya ilan sancması halı olub. O rayona həmin sayda zərdab verilir".

P.Abubəkirov onu da vurğuladı ki, baş həkimlərə də tapşırılır ki, son 3 zərdab qalanda öncədən məlumat versinlər və yenidən zərdab göndərilsin: "Məsələn, bu yaxınlarda Zaqatalada bir gündə 3 müxtəlif kənddə it dişləməsi oldu. Onlar zərdab sayının azalması ilə bağlı müraciət etdilər. Artıq zərdablar bütün rayonlara paylanıb, heç bir problem yoxdur. Bakıda 17, bölgələrdə 64 tibb məntəqəsinə zərdablar paylanıb. Bu il sözügedən məsələdə heç bir problem olmayacaq. Bu il bizi ən çox narahat edən it dişləmələridir. Ötən il 20 min belə hadisə qeydə alınmışdısa, bu ilin ilk 3 ayında artıq 5 minə yaxınlaşıb. Ona görə də it dişləməsi ilə bağlı zərdabların sayını artırmışıq".

**Professor, tibbi ekspert Adil Qeybulla isə bildirdi ki, Azərbaycanın müxtəlif regionlarında və Abşeron yarımadasında zəhərli ilanlar var və onlar insanlara təhlükə törədirlər.** Bu zaman isə sancma halları bəzən qaçılmaz olur: "Ona görə də regionlar üzrə sistemin qurulması mühüm şərtdir. Azərbaycan ərazisində olan ilanların zəhərlərinə qarşı zərdab mövcuddur. Bu o deməkdir ki, insanları bu zəhərlənmələr zamanı xilas etmək imkanı da var".

A.Qeybullanın sözlərinə görə, tək ilan yox, hörümçək, əqrəb və sair kimi zəhərli həşəratların sancması zamanı da ilkin yardımın göstərilməsi sistem şəklini almalıdır: "Zəhərə qarşı zərdabların olmasına rəğmən, ilan sancmasından dünyasını dəyişənlər də olur. Bu da dərmanlarla təminedilmə sisteminin düzgün qurulmadığını göstərir. Hansısa bir regionda belə bir hadisə baş verirsə, həmin şəxs özünə yaxın ərazidən ilan zəhərinə qarşı zərdablar ala bilməlidir ki, vaxtında müalicə olunsun. Təəssüflər olsun ki, bəzən ilan sancmış şəxsi Bakıya gətirirlər. Bu isə yolda vaxt itkisi deməkdir. Bu zaman lazımi köməklik göstərmək olmur və insan ölümü baş verir. Ona görə hesab edirəm ki, bu işi bir sistemə çevirmək lazımdır. Dünyanın müxtəlif ölkələrində necədirsə, bizdə də elə olmalıdır".

Tibbi ekspert onu da vurğuladı ki, nəinki it dişləməsi, hətta dovşan dişləməsi zamanı vaksin vurulması vacibdir: "İt dişləməsi hadisələri son vaxtlar tez-tez müşahidə olunur. Sahibsiz itlərin dişləməsi zamanı daha diqqətli olmaq lazımdır. Çünki bu cür itləri sonradan müşahidə etmək mümkün olmur. Onlar dişləyərək qaçır və kiminsə nəzarətində deyil. Ona görə də belə bir hadisə baş verərsə, mütləq diqqətli olmaq lazımdır. Əvvəlcə heyvan 40 gün ərzində nəzarətə götürülməlidir. Profilaktik olaraq xəstəyə quduzluq əleyhinə vaksin vurulur. Ədəbiyyat yazır ki, 1 faiz hallarda quduzluq vaksininin özündən yoluxma hadisəsi baş verə bilər. Vaksin zamanı diqqətli olmaq lazımdır. Əgər heyvan nəzarətdədirsə və onda quduzluq əlamətləri müşahidə edilirsə, mütləq insan müalicəvi dozaya keçməlidir. Əgər heyvan müşahidəyə götürülə bilməyibsə, insanda hər hansı quduzluq əlamətləri varsa, o dərhal profilaktik dozadan müalicəvi dozaya keçirilməlidir. Quduzluq xəstəliyi ilk öncə insanın sinirlərini zədələyir, qırtlaqda spazma baş verir. Xəstələrdə sudan, işıqdan qorxma baş verir və nəticədə insan spazmalardan, xüsusən də qırtlaq spazmalarından, tənəffüs iflicindən dünyasını dəyişir. Bütün bunlar olmasın deyə, istənilən it dişləmiş, hətta dovşan dişləmiş şəxslərə də vaksin vurulmalı və onlar nəzarətdə olmalıdırlar. Çünki quduzluq bu cür heyvanların ağız suyunda olur və ağız suyundan da insana asanlıqla keçə bilər".

**Həmsöhbətimizin dediyinə görə, bu gün ucqar rayon xəstəxanalarında zərdab çatışmazlığı yaşanır. Bu problemin qarşısını almaq üçün rayon xəstəxanaları artıqlaması ilə vaksin və zərdabla təmin olunmalıdırlar.**

***Günel CƏLİLOVA***




***Pərviz Abubəkirov:** "Baş həkimlərə də tapşırılır ki, son 3 zərdab qalanda öncədən məlumat versinlər və yenidən zərdab göndərilsin"*

***Adil Qeybulla:** "Bu gün ucqar rayon xəstəxanalarında zərdab çatışmazlığı yaşanır"*

№ 85 (3983) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

14 MAY 2019-cu il

## Bütün proqnozları doğru çıxan avropalı alimdən daha bir qorxulu proqnoz...

**Özünü yeni nəsil "zəlzələ kahini" adlandıran hollandiyalı seysmoloq Frenk Huqerbits daha bir qorxulu proqnoz verib.**

"Milli.Az" xəbər verir ki, mütəxəssis Yer kürəsində 8 bal gücündə zəlzələnin meydana gələcəyini deyib. Bu vaxta qədər verdiyi bütün proqnozları doğru çıxan mütəxəssis bu həftə planetlərin düzülüşünə diqqət çəkib və 5-6 may tarixlərində gerçəkləşən Mars-Yer-Yupiter və Günəş-Merkuri-Venera düzülüşlərinin ardınca Yeni Qvineyada 7,2 bal gücündə baş verən zəlzələni xatırladıb. Huqerbits 7-8 may tarixlərində Günəş-Merkuri-Venera-Neptun və Yer-Merkuri-Saturnun düzülüşlərində Merkurinin mövqeyinə diqqət çəkib. Bildirib ki, bu tip düzülüşlərdən sonra şiddətli zəlzələnin əmələgəlmə ehtimalı 71%-dir. Maqnituda isə adətən, 7,5 bal olur. Onun statistikasına görə, ən pis ssenaridə 8 və daha böyük bal gücündə zəlzələ baş verə bilər.



## Elan

Nizami rayonu, Elşən Süleymanov küçəsi, dalan 4, ev 5-də yaşayan Məmmədov Turqut Qadir oğluna məxsus evin çıxarışı və texniki pasportu itdiyi üçün etibarsız sayılır.

Şəki rayonu, Turan qəsəbə sakini Paşayev Qalib Xəlil oğlunun adına verilmiş Əfqanıstan müharibəsi veteranı vəsiqəsi ( A-470876 ) itdiyindən etibarsız sayılır.

Mahmudov Rauf Xudaverdi oğlunun adına verilmiş 860 nömrəli qeydiyyat vəsiqəsi və texniki pasport itdiyi üçün etibarsız sayılır.

Əliyev Əkbər Qasım oğlunun adına, Bakı şəhəri, Yasamal rayonu, H.Məcidov küçəsi, ev №4, mənzil №514 ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

Səmədəova Əminə Əbülfəz qızının adına, Abşeron rayonu, Xırdalan şəhəri, Quşçuluq massivi, ev №4, mənzil №5 ünvanının 240 saylı orderi itdiyi üçün etibarsız sayılır.

Şəfi-Zadə İosif Həsənoviçə məxsus, Bakı şəhəri, Yasamal rayonu, İ.Qutqaşınlı küçəsi, ev №97, mənzil №14 ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

Hacıyev Cavanşir Mirzə oğlunun adına, Bakı şəhəri Sabunçu rayonu, Sabunçu qəsəbəsi, Anaşkin küçəsi, ev №3A ünvanının qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Ağayeva Zərif Həsən qızının adına, Bakı şəhəri, Yasamal rayonu, M.Bünyadzadə (keçmiş 8-ci Dağlıq) küçəsi, ev №253, mənzil №33 ünvanının qeydiyyat vəsiqəsi (seriya MH № 009117) itdiyi üçün etibarsız sayılır.

Ağayev Nicat Osman oğlunun adına, Bakı şəhəri, Xətai rayonu, İ.Zülfüqarov küçəsi, 2942 A məhəllədə yerləşən ev №1, mənzil №63 ünvanına "Rahat Həyat" MTK tərəfindən verilmiş maliyyə arayışı itdiyi üçün etibarsız sayılır.

**"Şəki-İpək" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə!**

"Şəki-İpək" Açıq Səhmdar Cəmiyyətinin növbəti ümumi yığıncağı 28.06.2019-cu il tarixində keçirilsin. Yığıncağın gündəliyində olan məsələlər: 1. "Şəki İpək" ASC-nin illik fəaliyyətinin yekunları haqqında; 2. "Şəki İpək" ASC-nin 2018-ci maliyyə ilində fəaliyyətinin maliyyə-təsərrüfat nəticələri; 3. "Şəki İpək" ASC-nin növbəti maliyyə ili üçün maliyyə-təsərrüfat fəaliyyətinin əsas istiqamətlərinin müəyyənləşdirilməsi; 4. "Şəki-İpək" ASC-nin Müşahidə Şurası, İdarə Heyəti və Təftiş Komissiyasının seçilməsi.

Yığıncaq 28 iyun 2019-cu il tarixində, saat 15:00-da "Şəki-İpək" ASC-də keçiriləcək.

Səhmdarların ümumi yığıncağının gündəliyi üzrə materiallarla tanış olmaq üçün "Şəki İpək" ASC-nin İdarə Heyətinə yazılı şəkildə müraciət edə bilərsiniz.

**Müşahidə Şurası**

## Dünyanın ən sürətli superkompüteri...

**"AMD" şirkəti dünyada ən sürətli superkompüter hazırlanması üzərində işlərə başlayıb.**

"Frontier" adlı sistem "Cray" server istehsalçısı, ABŞ-ın Energetika Nazirliyi və "Oak Ridge" Milli Laboratoriyası tərəfindən birgə işlənib hazırlanır. "ICTnews" bildirir ki, "Frontier" superkompüterinin gözlənilən məhsuldarlığı 1,5 ekzaflops təşkil edir. Bu o deməkdir ki, superkompüter bir saniyə ərzində təxminən 1 500 000 000 000 000 000 əməliyyat emal edə biləcək. Məhsuldar hesablamalar və süni intellekt üçün optimallaşdırılmış "AMD EPYC" sifarişli prosessorları və "Radeon Instinct" ixtisaslaşdırılmış qrafik prosessorları istifadə olunacaq. "Frontier" superkompüterini 2021-ci ildə istifadəyə vermək planlaşdırılır.

## "Azercell" yeni korporativ təkliflərini açıqlayır və yeni rəqəmsal məhsul portfelini təqdim edir

**"Azercell" korporativ müştərilərinin istifadəsinə "Biznesim" - yeni nəsil tarif planları və rəqəmsal xidmətlərini təqdim edir.**

Yeni tarif paket abunəçilərə daha da geniş 4G sürətli internet imkanları, limitsiz şirkətdaxili zənglər və yeni rəqəmsal xidmətlər portfelindən yararlanmaq fürsətilə öncəki tarif paketlərdən xüsusilə fərqlənir. Rabitə xərclərinə nəzarət etmək, onları öncədən təyin etmək və azaltmağa kömək edəcək yeni tarif paketləri əməkdaşlarınız arasında əlaqəni məkandan asılı olmayaraq təmin edə biləcəksiniz.

Əlavə olaraq, "Azercell"in yeni tarif paketlərini aktiv edən korporativ müştərilər yeni rəqəmsal xidmətlər portfelindən istifadəetmə imkanı əldə edirlər. Bura Domain qeydiyyatı, Web səhifələrin yaradılması, toplu sms, profilli sms və sair xidmətlər aiddir.

"Müştərilərə və insanlara biznesin mərkəzi kimi yanaşmağın zəruriliyinə fokuslanmaq bizim hədəf olaraq təyin etdiyimiz və yeni məzmunlu məhsullar portfelimizə daxil etdiyimiz əsas xüsusiyyətlərdir. Biz Azərbaycanda fəaliyyət göstərən şirkətlərin seçimi olmaq, yeni nəsil həllərin təqib edilməsi və fərdiləşdirilmiş xidmətlə təmin edilməsi yolu ilə onların rəqəmsal transformasiya prosesini idarə etməyi hədəfləyirik", - deyə "Azercell"in Korporativ Seqment Biznes strukturunun departament rəhbəri Giorgos Chatzis bildirib.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

| 1GB Internet | 3GB Internet | 5GB Internet | 10GB Internet | 50GB Internet |
|---|---|---|---|---|
| Biznesim 10 | Biznesim 15 | Biznesim 20 | Biznesim 30 | Biznesim 50 |
| ✓ 10 AZN Aylıq abunə haqqı | ✓ 15 AZN Aylıq abunə haqqı | ✓ 20 AZN Aylıq abunə haqqı | ✓ 30 AZN Aylıq abunə haqqı | ✓ 50 AZN Aylıq abunə haqqı |
| ✓ Limitsiz Şirkətdaxili zənglər | ✓ Limitsiz Şirkətdaxili zənglər | ✓ Limitsiz Şirkətdaxili zənglər | ✓ Limitsiz Şirkətdaxili zənglər | ✓ Limitsiz Şirkətdaxili zənglər |
| ✓ 500 dəqiqə Şəbəkədaxili zənglər | ✓ 1000 dəqiqə Şəbəkədaxili zənglər | ✓ 2000 dəqiqə Şəbəkədaxili zənglər | ✓ 3000 dəqiqə Şəbəkədaxili zənglər | ✓ 5000 dəqiqə Şəbəkədaxili zənglər |
| ✓ 200 dəqiqə Şəbəkəxarici zənglər | ✓ 300 dəqiqə Şəbəkəxarici zənglər | ✓ 500 dəqiqə Şəbəkəxarici zənglər | ✓ 1000 dəqiqə Şəbəkəxarici zənglər | ✓ 2000 dəqiqə Şəbəkəxarici zənglər |
| - | - | ✓ 10 dəqiqə Beynəlxalq zənglər | ✓ 20 dəqiqə Beynəlxalq zənglər | ✓ 30 dəqiqə Beynəlxalq zənglər |
| ✓ 500 SMS | ✓ 1000 SMS | ✓ 2000 SMS | ✓ 2000 SMS | ✓ 3000 SMS |





**Qoç** - İşiniz üçün faydalı ola biləcək informasiya və ya məlumat axtarmağa başlayın. Məsləhətləşmə, toplantı, yazışma, işgüzar tərəfdaşla görüş üçün əlverişli zamandır. Xəbərlər arasında sizi narahat, nigaran edəcək məqam ola bilər.



**Buğa** - Çətin, mürəkkəb, gərgin gündür. Lakin bütün diqqətinizi işə yönəldərək boş söhbətlərə və dedi-qodulara vaxt ayırmasınız, yaxşı nəticələrə nail ola bilərsiniz. İntrovert olmayın, fikirləriniz bitkin forma alsın, gələcəklə bağlı planlar qurun.



**Əkizlər** - Təlimata, qaydaya və düzənə riayət edin. Yaxın ətrafınızdakı insanlarla münasibətlərdə müəyyən ağırlığa rəğmən, hadisələrdən tam narazı qalmayın. İndi situasiyada müsbət dəyişikliklər etmək imkanı var.



**Xərçəng** - Yaşamınızda yeni intriqa peyda olur, gərginlik artır. Bütün ziddiyyətlərin sülh yolu ilə həll olunacağını düşünməyin. Sizi mübahisə və qəfil problemin aradan qaldırılmasına yönəlmiş təcili iş gözləyir.



**Şir** - Bəzi emosiyalarınızı pərdələyin, rasional davranın. Yaxın ətrafınızdakı insanları müşahidə edin. Tərəfdaş və ya həmkarınızın maraqları, problemlərini düşünsəniz, yaxşıdır. İnandığınız insanın təşəbbüsünü qəbul edərək hadisələrin axın məcrasına müdaxilə etməyin.



**Qız** - Yaxın ətrafınızdakı insanların maraqlarına və mənafelərinə sayğı ilə yanaşın. Aqressiv və kobud davranmayın. Münaqişə yaranarsa, onu dərhal həll etməyə çalışın. Kollektiv fəaliyyətə üstünlük verin.



**Tərəzi** - Yaxın ətrafınızdakı insanların hər biri öz "zirvə"sini fəth etməyə çalışdığı vaxtda siz işlərinizi aramla, təmkinlə, düşünülmüş şəkildə görün. Gərgin anda ehtiyatlı və soyuqqanlı olun, münasibətləri aydınlaşdırmağa çalışmayın.



**Əqrəb** - Səhər saatlarından etibarən çoxsaylı xəbərlər və təmaslar olacaq. Dərindən həllini tələb edən situasiya yaranarsa, həmin müstəvidə nizama və qaydaya nail olun. Hadisələr istiqamətini və emosional fonunu dəyişsə də, mühüm işlərin siyahısı dəyişməz qalır.



**Oxatan** - Qəfil hadisələrə hazır olun. Yeniliklər yaşanacaq. Qətiyyətli və əzmli davranın, problem yaranarsa, onu dərhal çözməyə başlayın. Bütün işləri ideal görməyə çalışmayın.



**Oğlaq** - Hadisələr aktiv formalaşma mərhələsindədir. Kənarda qalaraq müşahidəçi mövqeyi tutmayın, konkret nəticələrə can atın. İşdə diqqətli olun, təlimatlara və intizama riayət edin.



**Dolça** - Gərgin gündr. Diqqətli olun, maraqlarınızı müdafiə edin, mənafelərinizi qoruyun. İşlərinizə və yaşamınıza müdaxilə cəhdləri olacaq. Kreativ bacarığınız yüksək səviyyədə olsun.



**Balıqlar** - Planlar çoxdur, lakin görüləcək işlərin həcmini və tapşırıqlarla tələblərin sayını müəyyənləşdirmək gərəkdir. Ən mühüm işə kifayətlənin. Fikriniz dağılmasın, bir işi yarımçıq qoyub, başqa işə başlamayın.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

*Hazırladı: Ramil QULİYEV*

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır.
(Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.